RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 167 (9334) 9 AVQUST 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# TORPAĞIN GÜCÜ

## Ordunun və siyasətin qüdrəti



Qarabağ torpağında da insana sonsuz güc verən qəribə bir hikmət var!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad etdiyi torpaqda!

Ora ayaq basan hər bir əsgər və zabitimiz, xüsusi təyinatlımız həmin andan etibarən güclərinə güc qataraq əfsanəvi yunan qəhrəmanlarından da üstün olurdular!

Odur ki, qüdrətli sərkərdələrinin rəhbərliyi ilə 44 gün ərzində düşmən ordusunu məhv etdilər, yalçın qayalara dırmaşaraq yalın əllə qala şəhəri Şuşanı azadlığa qovuşdurdular!

Bu gün qalib xalq və qalib dövlət olaraq daha xoşbəxt, daha güclü və daha qüdrətliyik!

Biz bu qələbəni hansısa qərar və ya qətnamənin, sülh danışıqlarının nəticəsi olaraq qazanmadıq.

Biz bu zəfərə müdrik və uzaqgörən Sərkərdəmiz, ən yeni silahlarla döyüşərək ən yeni strategiya və taktika tətbiq edən ordumuz, torpaqların azadlığı uğrunda qanını axıdan əsgər və zabitlərimiz, canını qurban verən şəhidlərimiz sayəsində nail olduq!

Daha kimsə bizə qalib gələ, bizdən torpaq qopara bilməz!

Biz Vətənimizə qayıtmışıq!

Biz Vətən torpağının üstündəyik!

Bu torpaq bizə tükənməz güc və qüdrət verir!

❖ ❖ ❖

* Torpaq təkcə qollu-budaqlı palıd, yaşı əsrlərlə ölçülən xan çinarlar bitirmir...

* Torpaq təkcə al-əlvan çiçəklər, ətri insanı bihuş edən güllər əmələ gətirmir...

* Torpaq təkcə dadından doymaq olmayan ləziz meyvələr, dadlı-tamlı tərəvəz və bostan məhsulları yetirmir...

* Torpaq təkcə bizi bağrına basıb qoynunda bəsləməklə Vətənimizə çevrilmir...

* Torpaq həm də bizə tükənməz güc, sevinc, bəxtəvərlik, rahatlıq bəxş edir!

* Biz öz torpaqlarımız uğrunda Vətəndə və Vətən uğrunda döyüşəndə güclü və məğlubedilməz oluruq!

* Biz Vətən uğrunda döyüşərək öləndə bunu şərəf sayırıq, şəhid qardaş və övladlarımızla fəxr edib qürur duyuruq!

* Ayağımız öz torpağımızda olduğu bir vaxtda heç kəs bizə qalib gələ bilməz!

* Hətta bütün dünya bir yerə yığışsa belə!

❖ ❖ ❖

44 günlük Vətən müharibəsində Tanrı Müzəffər Ali Baş Komandan İlham Əliyevin arxasında dayandı, ordumuza kömək etdi, qisasımızı almağa, torpaqlarımızı qaytarmağa yardım göstərdi!

Ermənistana gizlincə, ədalətsizcəsinə kömək etmək istəyənlərin hərəsinə isə bir bəla verir:

* Rusiya Ukrayna bataqlığında ilişib qalıb.

Müharibədən qurtarsa da, sanksiyaların fəsadlarından uzun müddət qurtara bilməyəcək.

* İran təklənmiş, hörmətsiz vəziyyətdədir.

Nə öz xalqı fars-molla rejimindən razıdır, nə də dünya terroru dəstəkləyən, erməni ilə dostluq edib müsəlman qonşusuna xain çıxan bu dövləti saya salır.

Fransa demokratik ənənələrə arxa çevirən, müstəmləkəçi kimi xalqları soymaqdan doymayan, vətəndaşlarının etiraz aksiyalarını qəddarcasına boğan bir dövlətə çevrilib.

Onun prezidenti Makron isə seçicilərindən şillə-qapaz yeməkdən, erməni maraqlarını başçılıq etdiyi dövlətin maraqlarından üstün tutmaqdan yorulmur, adı daim qalmaqallarda hallanır.

Heç də yaxşı aqibət gözləmir ermənipərəst fransız prezidentini.

Avropa İttifaqında ikili mövqe müşahidə edilir.

Şarl Mişel sülh müqaviləsinin tezliklə imzalanmasında maraqlı görünür.

Həmkarı Cozef Borrel isə nala-mıxa vurur.

Reallıq isə budur ki, bu gün Aİ Azərbaycan ilə əməkdaşlıqda, ondan mavi qaz və "yaşıl enerji" almaqda maraqlıdır və üzvləri ilə çoxsaylı müqavilələr imzalanıb.

Qışda avropalılar Azərbaycan qazı ilə isinə bilər, erməni vay-şüvəni ilə yox!

→ 3

# "Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq"

## Azərbaycan Prezidenti İlham Əliyevlə Xalq artisti Rasim Balayevin səmimi görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Xalq artisti Rasim Balayevə "İstiqlal" ordenini təqdim edib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı əvvəlcə Xalq artisti Rasim Balayev ilə söhbət etdi.

**Rasim Balayev:** Salaməleyküm.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Rasim Balayev:** Mənim bir arzum var idi ki, Qarabağdan sonra, işlərinizdən sonra Sizi qucaqlayım. Çox şükür ki, bizə qismət oldu.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi, ilk növbədə, yubileyiniz münasibətilə təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram.

**Rasim Balayev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz Azərbaycan xalqını öz sənətinizlə uzun illərdir ki, sevindirirsiniz. Fəaliyyətiniz çox məhsuldardır, onlarla filmdə çəkilmisiniz. Ümumiyyətlə, Azərbaycanın kino sənətinə çox böyük töhfə vermisiniz və bu fəaliyyət davam edir. Mən buna çox sevinirəm, çox şadam.

**Rasim Balayev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Siz eyni zamanda ölkəmizin ictimai həyatında da çox fəalsınız. Çox dəyərli fikirləriniz ölkəmizin ümumi inkişafına dəstəkdir. Təbii ki, sizin kino fəaliyyətiniz Azərbaycan xalqı üçün Babək, Nəsimi obrazları ilə də bağlıdır. Xalq qəhrəmanımız Babəkin, dahi şairimiz Nəsiminin obrazlarını siz canlandırmısınız və Azərbaycan xalqının təsəvvüründə də onlar elə sizin obrazınızdır.

→ 2

# Qlobal layihələr müəllifi

## İlham Əliyev Azərbaycanla Avropa arasında enerji körpüləri yaradıb

Ölkəmiz 2030-cu ilədək enerji balansında bərpaolunan enerjinin payını 30 faizə yüksəltməyi hədəfləyir. Hesablamaya görə, təkcə Xəzər dənizində 157 qiqavat həcmində potensial var.

Şuşada keçirilən I Qlobal Media Forumunda İlham Əliyev Azərbaycanın imkanlarını dəyərləndirərkən bildirib ki, bu ilin sonunadək ölkəmizdə 240 meqavat gücündə birinci Günəş enerjisi stansiyası istifadəyə veriləcəkdir, lakin bu, yalnız birincidir. Azərbaycan 10 qiqavat səviyyəsində memorandumlar və sazişlər imzalayıb. Həmin memorandumların yarısı belə həyata keçirilsə, bu, Azərbaycanın Avropada geniş coğrafiyaya elektrik enerjisi ixrac etməsinə imkan verəcək: "Bu, bizə elektrik enerjisi istehsal etmək üçün təbii qaza da qənaət etməyə imkan verəcək və biz həmin həcmləri beynəlxalq bazara çıxaracağıq. Yəni bu, hər kəs üçün uduşlu bir vəziyyətdir".

Prezident bu istiqamətdə Qarabağda və Şərqi Zəngəzurda da böyük imkanların olduğunu söyləyib.

→ 4

# İlham Əliyevin regional inkişaf proqramları

## Bölgələr müasir iqtisadi rayonlara çevrilib



Prezident İlham Əliyevin bölgələrə hər səfəri belə mühüm hadisələrlə zəngin olur. Elə avqustun 7-dəki səfərlərini qeyd edək. Yol tikintisi bu dəfə də dövlət başçısının diqqətində idi. Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak etdi. Həmin gün "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 kilometr) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsi də açıldı.

Yeni yolların çəkilişinin təməlinin qoyulmasının, yaxud açılışının Prezidentin bölgələrə səfərlərinin əksəriyyətində şahidi oluruq. Bu da təsadüfi deyil. Çünki yol olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Xüsusilə indi, kənd təsərrüfatının inkişafının prioritet olduğu, turizmin qarşısında geniş imkanlar açıldığı bir dövrdə yolların rahatlığı daha mühüm əhəmiyyət kəsb edir. Yol həm də insanların rahatlığı deməkdir.

→ 4

# Paşinyanın məişət səviyyəli yalanı

## Məğlub ölkənin sülh danışıqları prosesini uzatmaq üçün əl atmadığı oyun qalmayıb

"Paşinyanın son çıxışından bir daha məlum olur ki, sadə vətəndaş, professor və yaxud da dövlət məmuru olmasından asılı olmayaraq, ermənilərin xisləti dəyişmir. Bu mənada Paşinyanın Azərbaycanla bağlı verdiyi müsahibələr, səsləndirdiyi fikirlər bir-birilə ziddiyyət təşkil edir. Bu dəfə də indiki Ermənistan adlandırılan ərazidən azərbaycanlıların vaxtilə qovulmasını inkar edib. İddia qaldırıb ki, guya soydaşlarımız Qərbi Azərbaycanı könüllü olaraq tərk ediblər və bunun əvəzində onlara təzminat təklif olunub. Görünür, Ermənistanın siyasi rəhbəri Azərbaycan xalqına qarşı uzun illər həyata keçirilən etnik təmizləmə, zorakılıq və deportasiyanı da "könüllü" hesab edir. Ona görə də hətta beynəlxalq ictimaiyyətin belə qəbul etdiyi həqiqətləri danmaqdan çəkinmir".

→ 5

# ACE platformasının üst modulları dənizə yola salındı



ACE platformasının 19600 ton çəkisi olan üst modullarının tikintisinə 2019-cu ildə başlanıb və tikinti işləri möhtəşəm təhlükəsizlik göstəricisi ilə, yəni heç bir xəsarətə yol vermədən 21 milyon saat iş yerinə yetirilməklə tamamlanıb. Üst modullar neft və qaz emalı qurğularından, qazma qurğusu və avadanlığı kompleksindən, qaz kompressorundan və yaşayış bloklarından ibarətdir. Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib.

Xatırladaq ki, 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yataqlar blokunun işlənməsinin növbəti mərhələsidir. ACE dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yerləşən yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platformasıdır. Layihəyə həmçinin yeni yataqdaxili sualtı boru kəmərləri də daxildir.

→ 6

# "Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq"

## Azərbaycan Prezidenti İlham Əliyevlə Xalq artisti Rasim Balayevin səmimi görüşü





*Əvvəli 1-ci səh.*

Mən sizi ürəkdən təbrik etmək, sizə cansağlığı, uzun ömür arzulamaq istəyirəm. Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir, həm sovet dövründə bir çox mükafatlarla təltif olunmusunuz...

**Rasim Balayev:** Rəhmətlik Ulu Öndərimiz 50 yaşımdan həmişə mənim qayğıma qalıb.

**Prezident İlham Əliyev:** Bəli, elədir.

**Rasim Balayev:** Bunu da Siz davam etdirirsiniz.

**Prezident İlham Əliyev:** Qeyd etdiyiniz kimi, müstəqillik dövründə də 50 illik yubileyinizdə sizi "Şöhrət" ordeni ilə təltif etmişdir.

**Rasim Balayev:** Siz isə "Şərəf" ordeni.

**Prezident İlham Əliyev:** Bəli, mən "Şərəf" ordeni ilə. Bu yubiley ərəfəsində də siz yüksək ordenimiz olan "İstiqlal" ordeni ilə təltif edilmisiniz. Sizi bir daha təbrik edirəm.

**Rasim Balayev:** Təşəkkür edirəm, cənab Prezident. Dediyim odur ki, mən Sizin apardığınız bütün siyasəti - daxili və xarici siyasəti dəstəkləyirəm. Möhtəşəm Qələbə də Sizin adınızla bağlıdır. Mən xalqın arasında oluram, bütün təbəqələrlə görüşürəm, Siz öz adınızı tarixə bir Ali Baş Komandan kimi, elə əsl Babək kimi yazdınız. Əsl Babək Sizsiniz, biz onun obrazını oynayırıq.

Bu mükafat Azərbaycan sənətinə, sənətkarlara verilən qiymətdir. Biz başda Siz - Ali Baş Komandan olmaq şərtilə qəhrəmanlarımızı, qazilərimizi mütləq kino xətti ilə vəsf etməyə borcluyuq. Bu, bizim borcumuzdur, biz gərək bunu edək.

Mən Sizin bütün bu fəaliyyətinizi bir vətəndaş kimi dərindən izləyirəm və Sizə çox böyük inamımız var. Ad gününüzü rayonlarda, Qarabağda camaatla birlikdə qeyd edirsiniz.

**Prezident İlham Əliyev:** Bəli, sağ olun.

**Rasim Balayev:** Bütün bunları hamı, millət görür. Mən Sizə bu yolda uğurlar diləyirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Rasim Balayev:** Yenə də deyirəm, cənab Prezident, biz Sizə borcluyuq. Sizə və xalqımıza borcluyuq ki, bu gözəl, möhtəşəm Qələbəni biz kino vasitəsilə vəsf etməliyik. Çünki Qələbə, müharibədəki qəhrəmanlıqlar, orada iştirak edən qazilərin fədakarlığı hər yerdə göstərilməlidir. Mən bir-iki dəfə Şuşaya getmişəm, inanın gözlərim yaşarıb. Çünki mən 1986-cı ildə də getmişdim, orada İsa bulağının yanında ailəvi şəkil çəkdirmişdik. Sonra da 2021-ci ildə getdim. Bu xoşbəxtliyi bizə Siz bəxş etmisiniz. Siz deyirdiniz ki, bizim güclü ordumuz var, mən nəyin və nə vaxt olacağını yaxşı bilirəm. Siz, nəhayət, bu uğuru gətirdiniz. Xalq Sizi çox sevir.

**Prezident İlham Əliyev:** Çox sağ olun, Rasim müəllim.

**Rasim Balayev:** Biz həmişə dövlətimizin, dövlətçiliyimizin arxasındayıq və gələcək işlərimizdə Sizin bu diqqətinizə layiq olmağa çalışacağıq. Mən inanıram ki, Sizin və xalqımızın sevdiyi filmləri yenidən çəkəcəyik.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

* * *

Dövlət başçısı "İstiqlal" ordenini Rasim Balayevə təqdim etdi.

# 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il sentyabrın 20-dən oktyabrın 7-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. 74-cü Beynəlxalq Astronavtika Konqresinin beynəlxalq təşkilatçısı olan Beynəlxalq Astronavtika Federasiyasının müvafiq qaydalarına uyğun olaraq elektron qeydiyyat sistemi vasitəsilə qeydiyyatdan keçməni təsdiq edən sənəd;

2.2. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin rəsmi dəvət məktubu.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə Beynəlxalq Astronavtika Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 avqust 2023-cü il*

# "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 386; 2002, № 8, maddə 465; 2011, № 6, maddə 481; 2015, № 11, maddə 1290; 2016, № 5, maddə 840) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.4-cü maddə əlavə edilsin:

"1.4. Bu Qanunda "Azərbaycan Respublikasının səlahiyyətli orqanı" dedikdə, Azərbaycan Respublikasının Baş Prokurorluğu və müvafiq icra hakimiyyəti orqanı nəzərdə tutulur.".

2. 4.2-ci, 5.1-ci maddələrdə, 5.3-cü maddənin birinci cümləsində, 6.2-ci, 6.3-cü, 8.3-cü, 10.2-ci maddələrdə, 13.1-ci maddənin birinci cümləsində, 13.2-ci, 15.1-ci, 15.2-ci, 16.1-ci maddələrdə, 16.2-ci maddənin ikinci cümləsində, 16.4-cü, 16.5.1-ci, 18.1-ci və 18.2-ci maddələrdə "müvafiq icra hakimiyyəti" sözləri "səlahiyyətli" sözü ilə əvəz edilsin.

3. 7.1-ci maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanları" sözləri "səlahiyyətli orqanı və müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

# "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanununun tətbiqi və "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

1.2. həmin Qanunun 7.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 982-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 397) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.2. həmin Qanunun 6.1-ci maddəsində və 7.1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 avqust 2023-cü il*

# "Le Monde" qəzeti Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsini yayıb

Fransanın "Le Monde" qəzetində Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun müsahibəsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, jurnalist Emanuel Qrinzspanın Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət, xüsusilə də Laçın yolu ilə bağlı suallarını cavablandıran Elçin Əmirbəyov Qərb mətbuatında yer alan və guya yolun bağlanması ilə əlaqədar əsassız iddialara cavab verib.

Prezidentin xüsusi nümayəndəsi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq, Laçın yolunun humanitar məqsədlər üçün istifadə edilməli olduğunu, lakin iki il yarım müddət ərzində Ermənistanın bu yoldan qeyri-qanuni məqsədlər, o cümlədən Azərbaycan ərazisinə silahlı qüvvələrini, habelə silah-sursat göndərmək üçün istifadə etdiyini bildirib. O, Qarabağda yaşayan ermənilərin sayının 120 min kimi göstərilməsinin həqiqətə uyğun olmadığını və əslində, orada cəmi 50 min erməninin, o cümlədən 10 min qanunsuz erməni silahlı qüvvələrinin olduğunu vurğulayıb.


Le Monde • 4 sur 28
ENTRETIEN
«Depuis deux ans et demi, on constate l'utilisation abusive du corridor de Latchine par l'Arménie»

Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi müxbirin "Erməni hərbçilərini öz vətəndaşınız hesab edirsinizmi" sualına cavab olaraq, bu ermənilərin Azərbaycan ərazisinə üçtərəfli Bəyanata zidd olaraq, qeyri-qanuni daxil olan Ermənistan silahlı qüvvələrinin üzvləri olduqlarını qeyd edib. Azərbaycan tərəfinin bu səbəbdən aprelin 23-də beynəlxalq hüquqa uyğun olaraq Laçında dövlət sərhədindən buraxılış məntəqəsi yaratdığını söyləyib.

Laçın yolundan hazırda tibbi ləvazimatların keçdiyi və humanitar məqsədli yüklərin Azərbaycanın Ağdam və Füzuli ərazisindən keçməsi təklifinin isə ermənilər tərəfindən qəbul edilmədiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

E.Əmirbəyov vurğulayıb ki, əgər həqiqətən də vəziyyət təqdim edildiyi kimi faciəvi olsaydı, insanlar humanitar yardımın hansı istiqamətdən gəldiyinə əhəmiyyət verməzdi. Deməli ki, qondarma üzdəniraq "hakim dairələr" orada yaşayan ermənilərin əksəriyyətini girov saxlayırlar, çünki sosial şəbəkələrdə narazılıqlar eşidilir. Qondarma hakim qüvvələr bu vəziyyətdən Azərbaycan əleyhinə beynəlxalq səviyyədə təzyiq məqsədilə istifadə etmək istəyirlər.

Xüsusi nümayəndə müsahibəsində Vaqif Xaçaturyanın həbsi ilə bağlı faktlardan da bəhs edib, onun adının Birinci Qarabağ müharibəsi zamanı mülki azərbaycanlılara qarşı müharibə cinayətləri törədən şəxslərin siyahısında olduğunu diqqətə çatdırıb.

Elçin Əmirbəyov həmçinin jurnalistin Azərbaycanın avtoritar rejim olması ilə bağlı təxribatçı sualına cavab olaraq, Azərbaycanın demokratik ölkə olduğunu vurğulayıb və insan hüquqları məsələsinə gəldikdə, Fransa da daxil olmaqla, heç bir ölkənin mükəmməl olmadığı müxbirin diqqətinə çatdırılıb.

# Azərbaycanın və İranın Baş prokurorluqlarında istintaq olunan cinayət işləri barədə fikir mübadiləsi aparılıb

Avqustun 8-də İran İslam Respublikasının baş prokurorunun təhlükəsizlik və siyasi məsələlər üzrə müavini Mehdi Əmiri İsfahaninin rəhbərlik etdiyi, xarici işlər və digər aidiyyəti dövlət qurumlarının əməkdaşlarından ibarət nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəl nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Nümayəndə heyəti ilə görüşən Kamran Əliyev ötən il avqustun 30-da İran İslam Respublikasına səfəri çərçivəsində prokurorluq və ədliyyə orqanlarının rəhbər şəxsləri ilə qarşılıqlı görüşlərdə hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması, sərhəd, gömrük, ekoloji, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya, humanitar və digər məsələlər barədə aparılan müzakirələrin qurumlararası fəaliyyətə müsbət təsirini qeyd edib.

Kamran Əliyev İran İslam Respublikasının baş prokuroru Məhəmməd Cəfər Müntəzirinin Ali Məhkəmənin sədri, Məhəmməd Mohadinin isə ölkənin baş prokuroru təyin edilməsi münasibətilə həmkarlarına təbriklərini çatdırıb.

Görüşdə bu il yanvarın 27-də ölkəmizin İrandakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə əlaqədar Azərbaycan və İranın aidiyyəti qurumlarında istintaq olunan cinayət işləri barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

Baş prokuror İran tərəfindən cinayət işinin tam və hərtərəfli araşdırılmasının, bütün iştirakçıların müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmasının, habelə hüquq-mühafizə orqanları əməkdaşlarının hadisə vaxtı göstərdiyi fəaliyyətsizliyin, bu terror aktının törədilməsinin səbəb və hallarının yoxlanılmasının, cinayəti törətmiş və cinayətlə əlaqəsi olan bütün şəxslərə qanunla nəzərdə tutulmuş layiqli cəzanın verilməsinin zəruriliyini vurğulayıb.

Mehdi Əmiri İsfahani cari ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə edilmiş hücumdan təəssüf hissi keçirdiyini bildirərək Azərbaycan xalqına, hadisə nəticəsində şəhid olmuş və zərərçəkmiş şəxslərin ailə üzvlərinə başsağlığı verib. Bundan başqa, o, cinayət işinin istintaqının gedişatı barədə ətraflı məlumat verərək qısa müddətdə istintaqın tamamlanaraq iş üzrə qanuni qərarın qəbul olunmasının təmin ediləcəyini və təqsirli şəxslərin layiqli cəza alacağını bildirib.

Sonra nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Zəfər muzeyi ilə tanış olub.

Nümayəndə heyətinin səfəri davam edir. Səfər çərçivəsində nümayəndə heyəti prokurorluq və aidiyyəti istintaq qurumlarının iştirakı ilə görüşlər keçirərək cinayət işinin istintaqı və digər aidiyyəti məsələlərlə bağlı müzakirələr aparacaq.



# TORPAĞIN GÜCÜ

## Ordunun və siyasətin qüdrəti

Qədim yunan əsatirlərində Antey adlı bir qəhrəman var.

Tükənməz gücə sahibdir.

Həmin gücü isə torpaqdan alır.

Herakl Anteyə qalib gəlmək üçün Zefsin məsləhəti ilə uzun müddət güləşdikdən sonra onu başı üzərinə qaldıraraq havada saxlayır.

Ayaqları torpaqdan üzülən Antey getgedə zəifləyir və saatlar sonra tam gücdən düşür.

Beləliklə, Herakl onun kürəyini yerə vuraraq qalib gəlir.

**Qarabağ torpağında da insana sonsuz güc verən qəribə bir hikmət var! Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad etdiyi torpaqda!**

*Ora ayaq basan hər bir əsgər və zabitimiz, xüsusi təyinatlımız həmin andan etibarən güclərinə güc qataraq əfsanəvi yunan qəhrəmanlarından da üstün olurdular!*

**Odur ki, qüdrətli sərkərdələrinin rəhbərliyi ilə 44 gün ərzində düşmən ordusunu məhv etdilər, yalçın qayalara dırmaşaraq yalın əllə qala şəhəri Şuşanı azadlığa qovuşdurdular!**

**Bu gün qalib xalq və qalib dövlət olaraq daha xoşbəxt, daha güclü və daha qüdrətliyik!**

*Biz bu qələbəni hansısa qərar və ya qətnamənin, sülh danışıqlarının nəticəsi olaraq qazanmadıq.*

**Biz bu zəfərə müdrik və uzaqgörən Sərkərdəmiz, ən yeni silahlarla döyüşərək ən yeni strategiya və taktika tətbiq edən ordumuz, torpaqların azadlığı uğrunda qanını axıdan əsgər və zabitlərimiz, canını qurban verən şəhidlərimiz sayəsində nail olduq!**

*Daha kimsə bizə qalib gələ, bizdən torpaq qopara bilməz!*

*Biz Vətənimizə qayıtmışıq!*

*Biz Vətən torpağının üstündəyik!*

*Bu torpaq bizə tükənməz güc və qüdrət verir!*

❖ ❖ ❖

**Biz heç nəyi unutmamışıq!**

**Və heç zaman da unutmayacağıq!**

* BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazimizi danışıqsız tərk etmələri barədə 4 qətnamə çıxardı.

*Otuz il ərzində həmin qətnamələri icra edən olmadı, adi kağız parçası kimi havada qaldı.*

Bu vəziyyət də kimsəni zərrəcə narahat etmədi!

* Qarabağ problemini danışıqlar yolu ilə həll etmək üçün "ATƏT-in Minsk qrupu" adlı bir qurum yaradıldı.

*Otuz il bu qurum boş və mənasız, nəticəsiz danışıqlarla vaxt apardı, sülh yolu ilə bir qarış torpağı belə azad etməyə yaramadı.*

Sonda bizə "mövcud reallıqla barışmağı" təklif etdilər!

AŞ PA-da və Avropa PA-da dəfələrlə Azərbaycanın xeyrinə qərar və bəyanatlar çıxarıldı.

**Ancaq bunlar da boş söz və mənasız kağız olaraq qaldı, işğaldakı torpaqların boşaldılmasına heç bir təsiri olmadı.**

Amma dəfələrlə bu qurumların tribunasından Azərbaycanın əleyhinə ədalətsiz və qeyri-obyektiv fikirlər də səsləndirildi, sənədlər də qəbul olundu.

*Serj Sarkisyan AŞ PA-da çıxış edərək Xocalı soyqırımını törətdiklərini və bununla da dinc Azərbaycan sakinlərini qorxutduqlarını etiraf etdi. Avropa isə bu caninin etirafını karlığa salaraq eşitmədi.*

* Dünyanı idarə etmək üçün insanlar müxtəlif qurum və təşkilatlar yaradaraq orada "beynəlxalq qanunlar və konvensiyalar" qəbul ediblər.

**Amma həmin "beynəlxalq qanun və konvensiyalar" Azərbaycanın haqq işinin həllinə kömək göstərmədi, halbuki elə qərarlar olub ki, mürəkkəbi qurumamış icra edilib.**

Dünya hələ də ikili standartlarla yaşayır, qərarlar selektiv yolla qəbul və icra olunur!

* Bir vaxtlar bizə yeni yaranmış reallıqla hesablaşmağı və barışmağı tövsiyə edənlər nədənsə bizim yaratdığımız ən yeni reallıqları görmək istəmirlər.

*Halbuki biz nəinki 5 rayonu, hətta onların qaytarılmasını şübhəli şəkildə sonraya saxladıqları 2 rayonu da öz gücümüzə azad etdik!*

*Özü də həmin rayonları bir güllə belə atmadan, döyüşsüz geri qaytardıq!*

NECƏ BİLİRSİNİZ, CƏNABLAR:

* İndi sizin sözünüzlə;
* Sizin tövsiyənizlə;
* Cürbəcür bəyanatlarınızla;
* Təzyiq cəhdlərinizlə nəsə edəcəyik?!

Özünüz buna inanırsınız?!

* İndi torpaq da bizimdir!
* İndi yaratdığımız reallıq da bizimdir!
* Qüdrətli ordu da bizimdir!
* İkiəsrlik torpaq probleminin 30 illik münaqişə işğalından sonra qalib gələn tərəf də bizik!

**Bu gün istəmədiyimizi bizə zorla etdirə bilərsiniz?!**

**Öz torpağımız üzərində qürurla gəzərək quruculuq işləri aparır, murdar ləpirlərinizin yerində yeni şəhər və kəndlər salırıq!**

*Sərhədlərimizə də özümüz nəzarət edir, istəyəndə qapını açıb-bağlayırıq!*

*Baxın a!*

*Yana-yana qalın a!*

❖ ❖ ❖

* Torpaq təkcə qollu-budaqlı palıd, yaşı əsrlərlə ölçülən xan çinarlar bitirmir...
* Torpaq təkcə al-əlvan çiçəklər, ətri insanı bihuş edən güllər əmələ gətirmir...
* Torpaq təkcə dadından doymaq olmayan ləziz meyvələr, dadlı-tamlı tərəvəz və bostan məhsulları yetirmir...
* Torpaq təkcə bizi bağrına basıb qoynunda bəsləməklə Vətənimizə çevrilmir...
* Torpaq həm də bizə tükənməz güc, sevinc, bəxtəvərlik, rahatlıq bəxş edir!
* Biz öz torpaqlarımız uğrunda Vətəndə və Vətən uğrunda döyüşəndə güclü və məğlubedilməz oluruq!
* Biz Vətən uğrunda döyüşərək öləndə bunu şərəf sayırıq, şəhid qardaş və övladlarımızla fəxr edib qürur duyuruq!
* Ayağımız öz torpağımızda olduğu bir vaxtda heç kəs bizə qalib gələ bilməz!
* Hətta bütün dünya bir yerə yığışsa belə!

❖ ❖ ❖

Bir zamanlar bizi inandırmağa çalışdılar ki, Qarabağ probleminin hərbi yolla həll variantı yoxdur.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev sübut etdi ki, münaqişənin yeganə həll variantı elə müharibə imiş!**

*Həm də üç cəbhədə - hərb, diplomatiya və informasiya müharibəsində qalib gələrək dediklərini şəxsi nümunəsi ilə əyani olaraq göstərdi!*

İndi torpaqlarımıza da qayıtmışıq, sərhədlərimizi də möhkəmləndirib onlara özümüz nəzarət edirik, quruculuq işlərimiz də görünməmiş sürətlə gedir!

Dünyada baş verən prosesləri soyuqqanlılıqla izləyərək lazımi nəticələr çıxarır, önləyici və təsirli addımlar atırıq.

Bu gün türk dünyasının mədəniyyət paytaxtı Şuşadan baxanda nələri görürük:

* Yenidən ATƏT-in Minsk qrupunu xortlatmaq, yaxud ona bənzər bir qurum yaradaraq sülhyaratma prosesini beynəlmiləlləşdirmək istəyirlər.

Ay-hay!

*Əvvəla,* İlham Əliyev ATƏT-in Minsk qrupunu elə bir yerə göndərməyib ki, kimsə onu oradan qaytara bilsin.

*İkinci,* qaytarsalar da, dirildə bilməyəcəklər, çünki oradan qaytarılanlar bir daha dirilmirlər.

*Üçüncü,* əgər yeni bir qurum yaradaraq sülhə gəlmək belə asan və faydalıdırsa, onda ATƏT-in Minsk qrupuna bənzər birini təşkil edib Rusiya-Ukrayna müharibəsinə son qoyun da.

*Dördüncü,* görünən odur ki, hazırda erməniyə sülh müqaviləsini tezliklə imzalatmaq uğrunda yox, danışıqlarda "favorit" olmaq uğrunda mübarizə gedir.

Əgər səmimi-qəlbdən kömək etmək istəyirsinizsə, onda niyə bir-birinizin ayağından çəkirsiniz, elə birləşib ATƏT-i əvəz edin.

Azərbaycanın sülh şərtləri də ortadadır!

*Beşinci,* Fransa müharibə dövründə əlinin çatdığı ən yuxarı yerdə - BMT Təhlükəsizlik Şurasında bir iş görə bilmədisə, indi erməniyə arxa durmaqla neyləyəcək?!

Belə getsə, kiçik bacısının dövlətçiliyinin də axırına çıxacaq.

*Altıncı,* İran, Rusiya hərbi əməliyyatlar dövründə gecə-gündüz dayanmadan Ermənistana silah-sursat daşıdılar. Bu gün isə Hindistan da onlara qoşulub.

Neynək, əvvəlki silahları neynəmişiksə, təzələrini də həmin günə salacağıq!

**Mərmi və dronlarımız, PUA-larımız çoxdur!**

**Lap çox!**

❖ ❖ ❖

*İndi Ermənistan "qohum-əqraba"sını başına yığaraq yeni tamaşa çıxarır!*

**"Qarabağda humanitar böhran" adlanan bu tamaşa, əslində, ötən əsrin 90-cı illərində "DQMV sosial-iqtisadi cəhətdən geridə qalıb" adlı sovet dövrü oyunbazlığının yeni traktovkasıdır.**

Maşın karvanı Ermənistandan gələrək Laçın yolu ilə Qarabağa - Xankəndiyə ərzaq çatdırmaq istəyir!

**Ay özünüz öləsiniz!**

**Getdi o günlər!**

*İstəyirsiniz təkcə Fransadan, Aİ-dən gələnləri, ölkənizdəki səfirləri və diplomatik işçiləri deyil, bütün dünyanı gətirib bu səhnəyə tamaşa etdirin!*

*Nə dəyişəcək?!*

*Əvvəla,* Xankəndidəki mülki əhalinin deyil, orada Ermənistanın saxladığı və rus sülhməramlılarının hələ də çıxarmadığı separatçı qanunsuz silahlı qüvvələrin ərzağı tükənib!

Onları biz nə vaxt oradan çıxaracağımızı, harada saxlayacağımızı və nə yedizdirəcəyimizi yaxşı bilirik.

*İkinci,* Qarabağ da bizimdir, Laçın və Xankəndi də bizimdir, hələ Laçındakı nəzarət-buraxılış məntəqəsi də!

**Nə vaxt, kimin üzünə açarıq, özümüz bilərik!**

**Heç kəs istəmədiyimiz zaman o qapını bizə açdıra bilməz!**

*Qulağınızı açın, yaxşı eşidin!*

*Daha sovet dövrü deyil ki, hər şey Moskvadan idarə olunsun!*

*Artıq Azərbaycan müstəqil dövlətdir!*

**Azərbaycanın Prezidenti isə İlham Əliyevdir!**

**Hələlik sizə Ağdam-Xankəndi yolu ilə ərzaq daşımağa icazə veririk!**

**Hələlik!!!**

*Üçüncü,* əgər yeni çəkilmiş Ağdam-Xankəndi asfalt yolunu bəyənmirsinizsə, beton blok və plitələrlə bağlayırsınızsa, öz seçiminizdir.

İstəsəniz, pəhrizə də otura bilərsiniz.

*Amma Laçın yolunun və postunun sizin sərəncamınızda olaraq sizə xidmət etdiyi dövr artıq keçib!*

*Azərbaycan atalar sözündə deyildiyi kimi: o babanız ölüb!*

**Otuzillik dünya təcrübəsi göstərdi ki, məsələ beynəlxalq təşkilatların qərar və qətnamələri ilə, hansısa beynəlxalq vasitəçilərin köməyi, beynəlxalq hüquq və konvensiyalar və kiminsə təsir və təzyiq cəhdi ilə həll olunmur!**

**Həll yolunu 44 gündə, həm də əyani şəkildə necə lazımdırsa, eləcə də göstərdik!**

❖ ❖ ❖

*Bir maraqlı deyim də var:*

*"Allahı güldürmək istəyirsənsə, ona öz planların barədə danış".*

İndi Allah sizə yalnız istehza ilə gülür.

Çünki Tanrı artıq üzünü Azərbaycan xalqına tərəf çevirib!

**44 günlük Vətən müharibəsində Tanrı Müzəffər Ali Baş Komandan İlham Əliyevin arxasında dayandı, ordumuza kömək etdi, qisasımızı almağa, torpaqlarımızı qaytarmağa yardım göstərdi!**

Ermənistana gizlincə, ədalətsizcəsinə kömək etmək istəyənlərin hərəsinə isə bir bəla verir:

* Rusiya Ukrayna bataqlığında ilişib qalıb.

Müharibədən qurtarsa da, sanksiyaların fəsadlarından uzun müddət qurtara bilməyəcək.

* İran təklənmiş, hörmətsiz vəziyyətdədir.

Nə öz xalqı fars-molla rejimindən razıdır, nə də dünya terroru dəstəkləyən, erməni ilə dostluq edib müsəlman qonşusuna xain çıxan bu dövləti saya salır.

Fransa demokratik ənənələrə arxa çevirən, müstəmləkəçi kimi xalqları soymaqdan doymayan, vətəndaşlarının etiraz aksiyalarını qəddarcasına boğan bir dövlətə çevrilib.

**Onun prezidenti Makron isə seçicilərindən şillə-qapaz yeməkdən, erməni maraqlarını başçılıq etdiyi dövlətin maraqlarından üstün tutmaqdan yorulmur, adı daim qalmaqallarda hallanır.**

Heç də yaxşı aqibət gözləmir ermənipərəst fransız prezidentini.

Avropa İttifaqında ikili mövqe müşahidə edilir.

*Şarl Mişel sülh müqaviləsinin tezliklə imzalanmasında maraqlı görünür.*

*Həmkarı Cozef Borrel isə nala-mıxa vurur.*

Reallıq isə budur ki, bu gün Aİ Azərbaycan ilə əməkdaşlıqda, ondan mavi qaz və "yaşıl enerji" almaqda maraqlıdır və üzvləri ilə çoxsaylı müqavilələr imzalanıb.

**Qışda avropalılar Azərbaycan qazı ilə isinə bilər, erməni vay-şüvəni ilə yox!**

❖ ❖ ❖

*Acı bağırsaq kimi uzanan sülh danışıqlarında Azərbaycan Prezidenti İlham Əliyevin qəti və prinsipial mövqeyindən bir addım belə geri çəkilməyəcəyini bütün dünya yaxşı bilir!*

*44 günlük Vətən müharibəsində də bütün dünya İlham Əliyevin hər hansı təsir və təzyiq qarşısında kimsəyə güzəşt etmədiyinin şahidinə çevrildi!*

*Bu gün də İlham Əliyev xalqının və dövlətinin maraqlarını məharət və vətənpərvərliklə qoruyur, dediyinə sonadək əməl edir!*

**İndi kimlərsə bəyanat və açıqlama verməklə Azərbaycan Prezidentinə sərhəd qapısını açdıra bilər?!**

**Xam xəyalınızdır!**

İndiyədək itirdikləriniz kifayət qədərdir və əgər dövlətinizi də itirmək istəmirsinizsə:

* Gecikmədən Qarabağdakı qanunsuz silahlılarınızı çıxarın!
* Gecikmədən ağlınızı başınıza yığıb Azərbaycanın məlum şərtləri əsasında sülh müqaviləsini imzalayın!
* Təxribat əməllərinizdən əl çəkin, özünüzə və dilənçi gününə saldığınız beyni zəhərli xalqınıza yazığınız gəlsin!

*Bilin və əmin olun:*

Prezidentimiz nəyi, nə vaxt və necə etməyi hamıdan yaxşı bilir!

Ordumuz müharibə dövründəkindən daha güclü, daha qüdrətlidir!

"Dəmir yumruq" da həmişəki kimi öz yerindədir!

Qarabağ Azərbaycandır!

**Bəxtiyar SADIQOV**



# Qlobal layihələr müəllifi

## İlham Əliyev Azərbaycanla Avropa arasında enerji körpüləri yaradıb

Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bu sahədə imkanlarını daha da şaxələndirməklə tərəfdaşlarının sayını artırır. Mühüm qlobal layihələrin müəllifi və təşəbbüskarı kimi tanınan Prezident İlham Əliyevin həyata keçirdiyi enerji siyasəti ilə ölkəmizin geosiyasi mövqeyi getdikcə möhkəmlənir, xüsusən də Avropa ölkələri ilə strateji əməkdaşlıq daha da güclənir. İmzalanan enerji sazişləri, həyata keçirilən mühüm qlobal layihələr bunu təsdiqləyən reallıqdır.

Son illərdə dünya bazarındakı dəyişikliklər uzun illərdir Avropanın etibarlı xam neft təchizatçısı olan Azərbaycanın bu regionun enerji təhlükəsizliyindəki rolunu daha da artırıb. Təsadüfi deyil ki, Avropa İttifaqı ölkəmizi enerji sahəsində etibarlı tərəfdaş hesab edir və hazırda Azərbaycanla bu istiqamətdə sazişlər imzalamaqda maraqlıdır. Eyni zamanda ölkəmizin energetika sahəsində təşəbbüsləri, böyük layihələri xarici sərmayədarları da Azərbaycana investisiya yatırmağa cəlb edir.

Bu bir həqiqətdir ki, hazırda Rusiya-Ukrayna müharibəsinə görə rəsmi Moskvaya tətbiq edilən sanksiyalar üzündən Avropanın enerji təminatında əsas ümidi Azərbaycana qalıb. Ötən il iyulun 18-də "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da bir daha təsdiqlədi ki, qədim qitənin bu gün Azərbaycan qazına böyük ehtiyacı var.

Bu uğurları dəyərləndirən İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bildirib ki, Azərbaycan son illərdə Avropa ölkələri ilə bir çox razılaşmalar əldə edib. Artıq iki ildən çoxdur ki, Azərbaycan Avropanın mühüm qaz təchizatçısına çevrilib. Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyət yeni ölçü yaradıb, çünki hazırda Azərbaycanın enerji sərvətləri heç zaman olmadığı kimi onlar üçün zəruridir: "Lakin istənilən addıma gəldikdə, biz onu bir çox il əvvəl imzalanmış müqavilələrimiz və planlarımız əsasında atırıq. Düzdür, hazırda Azərbaycandan əlavə qaz almaq üçün müraciət edən ölkələrin sayı daha çoxdur. Bunu etməyə hazırıq və artıq başlamışıq. Ötən il daha çox ölkə qazımızı almağa başladı. Bu, cari ildə də davam edəcək. Lakin yenə də Rusiya ilə münasibətlərimiz nöqteyi-nəzərindən, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra çox şey dəyişməyib".

İmzalanan mühüm sazişlərə gəlincə onların bir neçəsini göstərmək kifayətdir. Ötən il Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında saziş enerji sektorunda yeni, eyni zamanda mühüm bir mərhələ açdı. Hökumətlərarası saziş Azərbaycan və Rumıniya arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını təmin edəcək. Bu kabellə ötürülən elektrik enerjisi daha sonra Macarıstana və Avropa nəqletmə sistemi vasitəsilə qitənin qalan hissəsinə nəql ediləcək. Qara dənizin dibi ilə elektrik enerjisi kabelinin çəkilməsi layihəsi daha əvvəl Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin iştirakı ilə Avropa İttifaqı ilə Azərbaycan arasında əldə edilmiş razılaşmanın tərkib hissəsidir.

İlham Əliyev bu sənədi "yaşıl enerji" təhlükəsizliyinin yaradılması üçün olduqca mühüm saziş, Azərbaycanla Avropa arasında yeni enerji körpüsü adlandırıb.

Bu saziş regionda "yaşıl enerji"nin inkişafı və ixracı ilə bağlı yeni bir imkandır. Çünki ekoloji cəhətdən təmiz, bərpaolunan mənbələrdən enerji istehsalı inkişaf etmiş ölkələrin enerji siyasətində getdikcə daha çox yer tutur.

Həm "Cənub qaz dəhlizi", həm də gələcək "yaşıl enerji" ilə bağlı Qara dənizin altı ilə inşa ediləcək layihə Azərbaycanın bərpaolunan enerji mənbələrini Avropaya gətirəcək.

Bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında anlaşma memorandumunun imzalanması da bu prosesin tərkib hissəsidir. İmzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun videomüraciətində bildirilirdi ki, anlaşma memorandumu regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcək. O, bu məsələdə Azərbaycanın rolunu belə qiymətləndirir: "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdi. Bu qış enerji təchizatının təhlükəsizliyini təmin etmək üçün Azərbaycan tərəfindən enerji təchizatı həlledici olmuşdur. Komissiya Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəkləyir".

"Həmrəylik halqası" adlandırılan bu layihə Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək. Yeni layihə "Cənub qaz dəhlizi" sayəsində iki ildən artıq müddət ərzində tərəfdaşlar üçün etibarlı və sabit enerji təchizatında strateji rol oynayan ölkədən - Azərbaycandan olan təbii qazın alternativ marşrut vasitəsilə əlavə bazarlara çıxışını təmin edəcək. "Həmrəylik halqası" təşəbbüsü həmçinin "Cənub qaz dəhlizi"nin genişlənməsi vasitəsilə imkanlar təqdim edir və eyni zamanda enerji sahəsində Azərbaycan və Avropa İttifaqı arasında strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsinə töhfə verir.

İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşada keçirilən I Qlobal Media Forumunda İlham Əliyev əcnəbi jurnalistlərin diqqətinə çatdırdı ki, Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin təşəbbüskarıdır və əsas səhmdarlarından biridir. Əslində isə ölkəmiz layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edir. Eyni zamanda son illərdə Azərbaycanın Avropaya qaz tədarükünün coğrafiyası genişlənir və ilin sonuna qədər əlavə iki Avropa ölkəsinin Azərbaycan qazının alıcısına çevriləcəyi də gözlənilir.

Alternativ və bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçidin təmin edilməsi istiqamətində də uğurlu addımlar atılır. Hazırda bəşəriyyətin iqlim dəyişikliyinə qarşı mübarizəsi gündən-günə güclənir və qloballaşır. Atmosferə atılan zərərli tullantıların həcminin azaldılması və "yaşıl enerji" ilə əvəz edilməsi dünya gündəliyinin ən vacib məsələlərindən birinə çevrilib. Atom elektrik stansiyalarının fəaliyyətinin azaldılması, eləcə də kömür və qazla işləyən elektrik stansiyalarının "yaşıl enerji" mənbələri ilə əvəz edilməsi üçün dünya ölkələri bir sıra planlar qurur. Azərbaycan öz növbəsində qlobal çağırışlara cavab verən layihələr reallaşdırır.

Ölkəmiz 2030-cu ilədək enerji balansında bərpaolunan enerjinin payını 30 faizə yüksəltməyi hədəfləyir. Hesablamaya görə, təkcə Xəzər dənizində 157 qiqavat həcmində potensial var.

Şuşada keçirilən I Qlobal Media Forumunda İlham Əliyev Azərbaycanın imkanlarını dəyərləndirərkən bildirib ki, bu ilin sonunadək ölkəmizdə 240 meqavat gücündə birinci Günəş enerjisi stansiyası istifadəyə veriləcəkdir, lakin bu, yalnız birincidir. Azərbaycan 10 qiqavat səviyyəsində memorandumlar və sazişlər imzalayıb. Həmin memorandumların yarısı belə həyata keçirilsə, bu, Azərbaycanın Avropada geniş coğrafiyaya elektrik enerjisi ixrac etməsinə imkan verəcək: "Bu, bizə elektrik enerjisi istehsal etmək üçün təbii qaza da qənaət etməyə imkan verəcək və biz həmin həcmləri beynəlxalq bazara çıxaracağıq. Yəni bu, hər kəs üçün uduşlu bir vəziyyətdir".

Prezident bu istiqamətdə Qarabağda və Şərqi Zəngəzurda da böyük imkanların olduğunu söyləyib. Növbəti ilin sonuna qədər 200 meqavat gücündə olan 30 hidroelektrik stansiyanın tikintisi başa çatdırılacaq. Artıq 50 meqavatdan çoxu istismara verilib.

Kəlbəcər-Laçın zonasında da külək enerjisinin nəhəng potensialı mövcuddur. Cəbrayıl rayonunda isə demək olar ki, bir neçə aydan sonra 240 meqavat gücə malik günəş stansiyasının tikintisinə başlanacaq. Bu, ölkəmiz üçün olduqca böyük potensial açır.

"Yaşıl enerji" dünyada baş verən enerji böhranları və enerji asılılığı kontekstində Avropa üçün vacib əhəmiyyət daşıyır. Belə starteji problemin həlli isə etibarlı tərəfdaş olmadan mümkün deyil. Azərbaycan bu missiyanı layiqincə yerinə yetirə bilir. Təsadüfi deyil ki, avropalıların "yaşıl enerji" kimi səciyyələndirdikləri qaz təchizatı məsələsində də Azərbaycan etibarlı və güvənilən bir tərəfdaş kimi çıxış edir. Bütün bunlar Azərbaycana iqtisadi və siyasi dividendlər qazandırmaqla ölkəmizin beynəlxalq nüfuzunun getdikcə daha da yüksəlməsini şərtləndirir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İlham Əliyevin regional inkişaf proqramları

## Bölgələr müasir iqtisadi rayonlara çevrilib

Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin geniş vüsət alması ilə paralel olaraq digər rayonlarımızın sosial-iqtisadi inkişafı da davam edir. Heç bir bölgə dövlətin diqqət mərkəzindən kənarda deyil. Regionların sosial-iqtisadi inkişafına yönəldilən proqramlar uğurla yerinə yetirilir - yeni müəssisələr açılır, yollar çəkilir, digər çoxsaylı layihələr icra olunur. Prezident İlham Əliyevin sosial-iqtisadi islahatlarının bir mühüm şərti də məhz budur: bölgələrin tarazlı inkişafı!

Dövlət başçısı hələ 2021-ci ilin əvvəlində, 44 günlük Vətən müharibəsindəki qələbədən bir neçə ay sonra bəyan etmişdi ki, əsas diqqət işğaldan azad olunmuş ərazilərə yönəlsə də, digər bölgələrdə yerinə yetiriləcək layihələr də yaddan çıxmayacaq. Həmin vaxtdan bəri ölkənin rayonlarında görülən işlər bu sözlərin həyatda öz təsdiqini tapdığının göstəricisidir. Bütün layihələrin icrası Prezidentin nəzarətindədir, bir çoxlarının da təməlini özü qoyur və istifadəyə verilməsində iştirak edir.

Prezident İlham Əliyevin bölgələrə hər səfəri belə mühüm hadisələrlə zəngin olur. Elə avqustun 7-dəki səfərlərini qeyd edək. Yol tikintisi bu dəfə də dövlət başçısının diqqətində idi. Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak etdi. Həmin gün "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 kilometr) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsi də açıldı.

Yeni yolların çəkilişinin təməlinin qoyulmasının, yaxud açılışının Prezidentin bölgələrə səfərlərinin əksəriyyətində şahidi oluruq. Bu da təsadüfi deyil. Çünki yol olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Xüsusilə indi, kənd təsərrüfatının inkişafının prioritet olduğu, turizmin qarşısında geniş imkanlar açıldığı bir dövrdə yolların rahatlığı daha mühüm əhəmiyyət kəsb edir. Yol həm də insanların rahatlığı deməkdir. İlham Əliyevin vətəndaşların maraqlarına, məmnunluğuna yönəldilmiş sosial-iqtisadi siyasətinin başlıca şərti də məhz budur!

4-cü texniki dərəcəyə uyğun yenidən qurulan, uzunluğu 19 kilometr olan Qarapapaq-Çaylı avtomobil yolu da həmin məqsədə xidmət edir. Belə ki, Qazax rayonu ərazisində üç yaşayış məntəqəsini birləşdirən bu yolun yenidən qurulması nəticəsində 14 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb. Bu avtomobil yolu uzun müddət təmir olunmadan istifadə edildiyindən, həmçinin təbii faktorların təsirindən yararsız vəziyyətdə idi.

Qeyd edək ki, Qazax rayonunun Qazax-Yuxarı Əskipara avtomobil yolunun 13-cü kilometrliyindən ayrılan Fərəhli avtomobil yolunun yenidənqurma işləri də yekunlaşıb. Yolun Fərəhli kəndinə qədər olan hissəsi 3 kilometr, kəndin içərisindən keçən hissəsinin uzunluğu isə 2 kilometrdir. Yolun tikintisi bu kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, bağ-bostanının məhsullarını bazarlara vaxtında çatdırmasına şərait yaradacaq.

Prezident həmçinin "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 kilometr) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak edib. Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunun genişləndirilməsi, iri yaşayış məntəqələrindən kənar keçməsi piyadaların və sürücülərin təhlükəsizliyi baxımından önəmlidir. Xatırladaq ki, Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır.

Prezidentin açılışında iştirak etdiyi digər obyektlər də regionların hərtərəfli inkişafına yönəldilmiş layihələrin ardıcıl həyata keçirildiyini, o cümlədən 2019-2023-cü illəri əhatə edən sosial-iqtisadi proqramın layiqincə yerinə yetirildiyinin təsdiqidir. Məsələn, Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemləri istismara verilib. "Qazax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin icrasına 2019-cu ildə başlanıb. Qazax şəhəri və ətraf kəndləri dayanıqlı içməli su ilə təmin etmək üçün Ağstafa rayonu ərazisində 12 subartezian quyusu qazılıb və 7,8 kilometr uzunluğunda artezianlararası su xətti çəkilib. Su mənbəyindən Qazax şəhərinə 8,9 kilometr uzunluğunda magistral su kəməri inşa olunub. Şəhər yaxınlığında hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı tikilib. Layihənin icrası nəticəsində rayonun Ağköynək və Qarapapaq kəndlərinin şəhərə bitişik hissəsi də su ilə təmin edilib. Bu layihə çərçivəsində yeni yaradılmış su mənbəyi hesabına gələcəkdə həmin kəndlərin digər hissəsinə, eləcə də Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə layihədən 45 min sakin faydalanacaq.

Dövlət başçısı Qazaxda "Venzana" mebel fabrikinin açılışında da iştirak edib. Bu fabrik "Saloğlu" mebel istehsalı müəssisəsinin nəzdində yaradılıb. "Saloğlu" müəssisəsi 2000-ci ildən mebel istehsalı və satışı sahəsində fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, həm də ixrac edilir. "Venzana" mebel fabrikinin təməli Prezident İlham Əliyevin 2016-cı ildə Qazax rayonuna səfəri çərçivəsində qoyulub. İstehsal sahəsi 18 min kvadratmetr, investisiya dəyəri isə 30 milyon manat olan müəssisə il ərzində 12 min dəst yataq, 6 min dəst qonaq otağı mebeli istehsal etmək gücündədir. İstehsal olunan mebellərin daxili bazarla yanaşı, Rusiya, Qazaxıstan, Gürcüstan, Almaniya və digər ölkələrə ixracı nəzərdə tutulur.

Bu cür istehsal müəssisələrinin istifadəyə verilməsi, onların ən müasir avadanlıqla təchiz edilməsi ölkəmizdə sənaye sahəsinin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Yeri gəlmişkən, qeyd edək ki, bu ilin birinci yarısında keçən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft-qaz sektorunda məhsul istehsalı 6,5 faiz artıb. Bütün bunlar isə daxili bazarın tələbatının ödənilməsi baxımından böyük əhəmiyyət daşıyır. Qeyri-neft sənayesi şaxələndirilir, mövcud təbii və iqtisadi resurslar dövriyyəyə cəlb olunur. Ən başlıca nailiyyətlərdən biri də odur ki, yüzlərlə yeni iş yeri yaradılır. Deməli, Prezidentin prioritet kimi elan etdiyi daha bir sahə - məşğulluğun təmin olunması daim diqqət mərkəzindədir.

Dövlət başçısı sözügedən səfəri çərçivəsində Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının, Samuxda Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin, Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binalarının açılışında iştirak edib. Xəstəxana Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyədə istehsal edilən ən müasir avadanlıqla təchiz olunub.

Hazırda Samux şəhərində Heydər Əliyev Fondu tərəfindən 3 saylı körpələr evi-uşaq bağçası üçün də yeni bina inşa edilir. Heydər Əliyev Fondu, ümumiyyətlə, indiyədək Samuxda bir sıra layihələr həyata keçirib. Sərkar kəndində 800 şagird yerlik tam orta məktəb və körpələr evi-uşaq bağçası yenidən tikilib və 2020-ci ildə istifadəyə verilib. Həmin il rayonun Ziyadlı kəndində 523 şagird yerlik orta məktəb əsaslı təmir olunub, körpələr evi-uşaq bağçası üçün bina inşa edilib.

Bəli, bütün görülən işlər Azərbaycan vətəndaşının rifahına və məmnunluğuna xidmət edir. Hazırda Azərbaycanda 6 DOST Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə indiyədək 1 milyon 673 min nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,2 faiz təşkil edir. 2025-ci ilədək mərkəzlərin sayının 17-yə (o cümlədən Bakıda 5, regionlarda 12), yerlərdə xidmətlərin təşkili məqsədilə filialların sayının 55-ə çatdırılması planlaşdırılır.

Bərdədə açılışında Prezidentin iştirak etdiyi Qarabağ Regional DOST Mərkəzi bu istiqamətdə atılan uğurlu addımların göstəricisidir. Qarabağ Regional DOST Mərkəzinin dördmərtəbəli binasında 123 işçi çalışacaq, "Könüllü DOST" proqramı üzrə 50 könüllü fəaliyyət göstərəcək. Mərkəzdə gün ərzində orta hesabla 650-700 vətəndaşın qəbulu nəzərdə tutulur. Qarabağ Regional Dost Mərkəzinin əhatə dairəsinə 9 inzibati rayon daxildir.

Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi də insanların işlə təmin olunmasında mühüm rol oynayacaq. Belə ki, burada 48 peşə istiqaməti üzrə tədrisin həyata keçirilməsi üçün infrastruktur yaradılıb. Mərkəzdə bir dəfədə 300, ildə isə 1200 nəfərin hazırlıq keçməsi nəzərdə tutulub.

Xatırladaq ki, hazırda ölkəmizdə Bakı, Göyçay, Gəncə və Qarabağ Peşə Hazırlığı mərkəzləri fəaliyyət göstərir. DOST Konsepsiyasına uyğun olaraq, Quba, Cəbrayıl, Sabirabad, Şəki, Masallı, Ucar və Şamaxıda da peşə hazırlığı mərkəzləri açılacaq. Ümumilikdə son 5 ildə ölkədə 1 milyondan çox şəxsə məşğulluq xidməti göstərilib. İşlə təmin olunanların sayı 425 min nəfərə çatıb. Həmçinin 68 min nəfər özünüməşğulluq xidməti, 20 min nəfər işsizlikdən sığorta ödənişi ilə təmin edilib, 18 min nəfər peşə hazırlığına, 473 min nəfər isə peşəyönümlü xidmətlərə cəlb olunub. Postmüharibə dövründə 19 min şəhid ailəsi üzvü və müharibə iştirakçısı müvafiq xidmətlərdən yararlanıb. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən məşğulluq tədbirləri çərçivəsində indiyədək 129 min şəxsin təhlili aparılıb.

"Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın maraqları dayanır", - deyir Prezidentimiz. Bunu dövlət başçısının bölgələrə növbəti səfərində də aydın gördük. Bu səfər çərçivəsində istifadəyə verilən yeni obyektlərin əhatə dairəsi bir daha sübut edir ki, İlham Əliyev "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" sözlərinə də sadiqdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*







# Hayastanın "humanitar fəlakət" şousu

## Əgər bu dövlət Qarabağdakı erməniləri düşünsəydi, Ağdam-Xankəndi yolundan istifadə edərdi

Ermənistanın Laçın sərhəd-keçid məntəqəsindəki şousu bitmək bilmir. Havadarları vasitəsilə müxtəlif beynəlxalq təşkilatları da "humanitar fəlakət"lə bağlı ayağa qaldırmağa çalışan təxribatçı, işğalçı Ermənistanın humanizmdən danışması gülünc görünür.





Digər tərəfdən Ağdam-Xankəndi yolundan imtina etməklə özünü ifşa edir. Əgər Qarabağdakı ermənilərin humanitar yardıma ehtiyacı varsa, həqiqətən də Ermənistan dövləti onları düşünürsə, nə olursa-olsun bu yoldan zəruri yüklərin daşınmasını təşkil etməliydi.

Amma birmənalı olaraq bu yoldan imtina etməsi göstərir ki, əslində, bu da Azərbaycanla münasibətlərin normallaşmasının əngəllənməsinə, sülh sazişinin gecikməsinə hesablanmış təxribatlarından biridir.

Təbii ki, regionda maraqları olan Ermənistanın havadarları rəsmi İrəvanı belə addımlar atmağa daha da həvəsləndirir, ona "dəstək" verirlər. Elə BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin Azərbaycan tərəfindən guya Laçın dəhlizinin blokadada saxlandığı və "Dağlıq-Qarabağ" bölgəsində "gərgin humanitar vəziyyət" yarandığı iddiası ilə çıxış etmələri də bunun göstəricisidir və bu, dünyanın ən böyük təşkilatının müxtəlif orqanlarının siyasi manipulyasiya alətinə çevrilməsi deməkdir.

### Haylar məntiqə uyğun gəlməyən davranışlar edirlər

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında deyib ki, əgər haylar bu regionda qalıb yaşamaq istəyirlərsə, onların son üç ilə yaxın müddətdə atdıqları addımlar, yeritdikləri siyasət bunu göstərmir. Haylar məntiqə uyğun gəlməyən davranışlara yol verirlər: "Bu davranışlar əslində, onların son 200-300 ildə gətirilib yerləşdirildikləri Qafqazdan çıxıb getmələrinə, özlərinə daha əlverişli şərait qurduğu yerlərə köçməyə hesablanıb. Hayların hərəkətlərini başqa cür izah etmək olmur".

S.Alıyevin fikrincə, rəsmi İrəvanın atdığı son addımlar isə gərginlik yaratmağa xidmət edir. Yəni bu addımlar belə davam edəcəksə, növbəti toqquşmalar qaçılmazdır. Bunun nə ilə nəticələnəcəyini proqnozlaşdırmaq həm asan, həm də çətindir. Əgər toqquşma olarsa, qarşı tərəf növbəti ağır məğlubiyyətlə üzləşəcək. Hətta Ermənistan adlı dövlətin Yer üzündən silinməsi də mümkündür. Bunu bir çox ekspertlər, o cümlədən ermənilərə canı yananlar da istisna etmirlər. Ermənistanın "sonuncu cəhd" siyasətinin digər tərəfində əgər yenə açıq dilə gətirilməyən mənfur "miatsum" xülyası gizlənirsə, bu, mümkünsüzdür. Azərbaycan heç bir vəchlə buna imkan verməyəcək. Dövlət başçımızın da dəfələrlə vurğuladığı kimi, status məsələsi mümkünsüzdür.

Deputat vurğulayıb ki, Qarabağdakı haylar ya Azərbaycan qanunları ilə yaşayacaqlar, ya da hara istəyirlərsə, köçüb gedəcəklər. "Çox təəssüflə qeyd edim ki, son zamanlar Ermənistanın vəziyyəti gərginləşdirdiyini və ərazi bütövlüyümüzü tanıdıqları haqqında verdikləri bəyanatdan geri çəkildiklərini görürük. Əgər Ermənistanda Qarabağdakı "humanitar fəlakət"lə bağlı işçi qrup yaradılırsa, bu ölkənin parlamentinin sədri Qarabağda özünü yeni "parlament sədri" kimi təqdim edən birinə təbrik göndərirsə, bu, Azərbaycanın daxili işlərinə müdaxilədir. Bu, Qarabağın haylar yaşayan hissəsini Ermənistanın yurisdiksiyası altında hiss etməkdir. Təbii ki, Azərbaycan bunları cavabsız qoymayacaq", - deyə deputat əlavə edib.

### "Humanitar yük" karvanının sərhədə yığılması növbəti siyasi manipulyasiyadır

Milli Məclisin deputatı Azər Badamov qeyd edib ki, Ermənistan iki həftəyə yaxındır sərhədimizdə avtomobil şousu yaratmaqla təxribatını davam etdirir. Laçın sərhəd-buraxılış məntəqəsinə birləşən yolda humanitar yük adı altında avtomobil karvanının yığılması Ermənistanın siyasi manipulyasiyaya cəhdinin növbəti təzahürüdür: "Ermənistan fəaliyyətini beynəlxalq ictimaiyyəti daim saxta məlumatlara inandırmağa yönləndirir. Hətta ötən əsrin 90-cı illərinin əvvəlində Ermənistan torpaqlarımızı işğal edə-edə Azərbaycanı işğalçı kimi təqdim etməyə çalışırdı. Amma dövlətimizin siyasəti, düşünülmüş fəaliyyəti əsl reallığın beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmasına yol açdı. Otuz il torpaqlarımız işğal altında olduğu dövrdə də Ermənistanın ritorikası məğlubedilməz erməni ordusu və yeni ərazilər uğrunda yeni müharibə üzərində qurulmuşdu".

A.Badamov vurğulayıb ki, bu gün Ermənistan siyasəti dəyişsə də, fəaliyyətinin mahiyyəti dəyişməyib. Belə ki, danışıqlar masasında sülh istədiyini bildirir, sonra isə təxribatlara əl atır. Bu dövlətin sərhədə yığdığı "Spayk" şirkətinin avtomobillərinin 44 günlük Vətən müharibəsi dövründə "pampers" adı altında hərbi təyinatlı məhsullar daşıdığı Gürcüstan tərəfindən ifşa edilmişdi. Bu şirkət ancaq təxribatyönümlü hərəkətlərlə məşğuldur. Sərhədimizə yaxın düzülmüş avtomobillərdə də humanitar yardım adı altında hərbi təyinatlı yüklərin olması istisna deyil. Qarabağda yaşayan ermənilərin humanitar yardıma ehtiyacları varsa, bunu daha rahat olan Ağdam-Xankəndi yolu ilə daşıya bilər, üstəlik Azərbaycan da təşkil edər. Azərbaycan bu yolu təklif edib. Bu gün separatçıların təzyiqi altında ermənilər təklifimizdən imtina edirsə, bu, onların humanitar yardıma ehtiyacı olmadığını göstərir.

Deputat əmin olduğunu bildirir ki, ehtiyac yarandığı təqdirdə ermənilər Azərbaycana yalvaracaqlar. "Ermənistanla sərhədimizin möhkəmlənməsi separatçıların bütün çirkin niyyətlərini alt-üst edib. Qarabağ Azərbaycanın suverən ərazisidir və heç kim dövlətimizin icazəsi olmadan ərazilərimizə nə isə gətirə bilməz. Dünyada bütün suverən dövlətlərdə bu, belə qəbul olunub. Birmənalı olaraq Qarabağ Azərbaycandır. Ermənistan və separatçıların özləri də bunu birdəfəlik dərk etməlidirlər. Onların təxribatlara davam etməsi mənasız son çabalamadır", - deyə o əlavə edib.

A.Badamovun sözlərinə görə, müharibənin başa çatdığı üç ilə yaxın bir zamanda Azərbaycan öz məqsədlərinə doğru mərhələ-mərhələ addımlayır. Azərbaycanın əsas məqsədi suverən əraziləri qorumaq, sülhməramlıların müvəqqəti yerləşdirildiyi ərazilərdə dövlət quruluşunu bərpa etmək və regionda təhlükəsiz əməkdaşlıq mühiti yaratmaqdır. Niyyətimiz təmiz olduğundan onun reallaşması labüddür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Paşinyanın məişət səviyyəli yalanı

## Məğlub ölkənin sülh danışıqları prosesini uzatmaq üçün əl atmadığı oyun qalmayıb

Ermənistanın baş naziri Nikol Paşinyan vaxtilə azərbaycanlıların Ermənistanı "könüllü tərk etməsi" və onlara "təzminat ödənilməsi" ilə bağlı əsassız iddialar səsləndirib. Təzminatın qanunsuz aktın törədilməsi və itkilərin baş vermiş olması etirafı anlamına gəldiyini nəzərə alsaq, bu iddiaların bir-biri ilə ziddiyyət təşkil etdiyini görərik. Buradan belə nəticə çıxır ki, Qərbi azərbaycanlılar öz yurd-yuvalarından könüllü köçmüş olsaydılar, onlara "təzminat" təklif edilməzdi.







Qərbi Azərbaycan İcması bu məsələ ilə bağlı bəyanat yayaraq Paşinyanın bu saxta iddialarını qətiyyətlə pisləyib. Onlar Ermənistan hökumətindən yalan iddialar yaymağı dayandırmağı və qovulmuş azərbaycanlıların legitim narahatlıqları ilə bağlı substantiv dialoqa başlamağı tələb ediblər.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Paşinyanın növbəti yalanı azərbaycanofobiyanın nəticəsidir

Milli Məclisin deputatı Asim Mollazadə bildirib ki, Ermənistanın, şəxsən Paşinyanın yalan və böhtanları vəziyyəti elə səviyyəyə çatdırıb ki, ona artıq heç kim inanmır: "Deyəsən, Paşinyan heç özü də özünə inanmır. Danılmaz faktdır ki, azərbaycanlılar vaxtilə Ermənistandan zorakılıqla deportasiya olunublar. Ermənilər münaqişə başlayanda bütün azərbaycanlıları qovub ölkədən çıxarıblar. Soydaşlarımızın Ermənistanı guya könüllü tərk etmələri iddiası tamamilə yalandır".

Deputat qeyd edib ki, tarix boyu ermənilər azərbaycanlılara qarşı etnik ayrı-seçkilik həyata keçirib, soydaşlarımızı müxtəlif təqiblərə məruz qoyublar. Bu, tarixən Ermənistanda dərin kök salmış azərbaycanofobiya ilə sıx bağlıdır. Bunun nəticəsidir ki, indi də Ermənistana ünvanladığımız dialoq təklifimizi "ərazi iddiası" kimi qələmə verir, beynəlxalq ictimaiyyətin ölkəmizə qarşı təzyiqlərini artırmağa çalışırlar. Onlar bununla bir daha sübut edirlər ki, Azərbaycanla münasibətlərin normallaşmasında, sülh müqaviləsinin imzalanmasında maraqlı deyillər.

Asim Mollazadə bildirdi ki, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərini yenidən, həm də sürətlə bərpa edir. Ötən 30 il müddətində mənfur ermənilər tərəfindən viran qoyulmuş torpaqlarımızın hər qarışına xüsusi qayğı ilə yanaşılır, bütün şəhər və kəndlərimiz cənnətməkana çevrilir, onlar əzəli görkəminə qaytarılır. Bu, xalqımızda məmnunluq doğurur: "Bu gün soydaşlarımızın Qarabağa və Şərqi Zəngəzura qayıdışını təmin edə biliriksə, deməli, bir gün də mütləq Qərbi Azərbaycandakı dədə-baba torpaqlarımıza qovuşacağıq".

### Qərbi Azərbaycanda yaşayarkən soydaşlarımıza hər fürsətdə divan tutulub

"Paşinyanın son çıxışından bir daha məlum olur ki, sadə vətəndaş, professor və yaxud da dövlət məmuru olmasından asılı olmayaraq, ermənilərin xisləti dəyişmir. Bu mənada Paşinyanın Azərbaycanla bağlı verdiyi müsahibələr, səsləndirdiyi fikirlər bir-birilə ziddiyyət təşkil edir. Bu dəfə də indiki Ermənistan adlandırılan ərazidən azərbaycanlıların vaxtilə qovulmasını inkar edib. İddia qaldırıb ki, guya soydaşlarımız Qərbi Azərbaycanı könüllü olaraq tərk ediblər və bunun əvəzində onlara təzminat təklif olunub. Görünür, Ermənistanın siyasi rəhbəri Azərbaycan xalqına qarşı uzun illər həyata keçirilən etnik təmizləmə, zorakılıq və deportasiyanı da "könüllü" hesab edir. Ona görə də hətta beynəlxalq ictimaiyyətin belə qəbul etdiyi həqiqətləri danmaqdan çəkinmir".

Bu fikirləri isə Milli Məclisin deputatı Məlahət İbrahimqızı söyləyib. Deputatın sözlərinə görə, 1980-ci illərin sonlarında Ermənistanda məqsədli şəkildə törədilmiş cinayətlər elə Xocalı faciəsində baş verənlərlə eynilik təşkil edir. Lakin təəssüf ki, həmin vaxt sovetlərin hakimiyyəti olduğuna görə, bir çox hadisə ört-basdır edilirdi. XX əsrin əvvəllərindən sonuna qədər Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza hər fürsətdə divan tutulması inkar edilə bilməz.

Məlahət İbrahimqızı söyləyib ki, bütün bunlara rəğmən Paşinyanın ağ yalan uydurması riyakarlıqdan başqa bir şey deyil: "Bu, erməni xislətinin çirkinliyinin bariz nümunəsidir. Ermənilər bilməlidirlər ki, Qərbi azərbaycanlılar öz doğma yurdlarına mütləq qayıdacaqlar. Qərbi Azərbaycan İcmasının yaradılmasının məqsədi də soydaşlarımızın Vətən həsrətinə son vermək, onların dədə-baba torpaqlarına qayıdışını təmin etməkdir. Biz mütləq bir gün sülh yolu ilə, ləyaqətli şəkildə, beynəlxalq hüququn norma və prinsiplərinə əməl edərək Qərbi Azərbaycana qayıdacağıq".

### Qərbi azərbaycanlıların haqlarının bərpası zərurətə çevrilib

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Azərbaycan Prezidentinin hərb meydanında olduğu kimi diplomatik müstəvidə də ardıcıl qələbələri qarşısında aciz qalan Ermənistan yenidən ənənəvi yola - saxtakarlığa üz tutub: "Paşinyan bu dəfə də dövlət xadiminə yaraşmayacaq, məişət səviyyəli növbəti yalanı - Qərbi Azərbaycandan deportasiya edilənlərlə bağlı feyk məlumatları tirajlamağa başlayıb. Baş nazir iddia edir ki, guya vaxtilə Qərbi azərbaycanlılar Ermənistandan könüllü şəkildə çıxıblar, hətta onlara təzminat da təklif olunub".

Deputat vurğulayıb ki, Paşinyan bu yalanı informasiya savaşında həmlə hesab etsə də, əslində, Ermənistanın daha bir məğlubiyyətinin bəyanı və İrəvanın özünü ifşasıdır.

"Baş verənlər göstərir ki, cənab İlham Əliyevin uğurlu strategiyası nəticəsində Qərbi Azərbaycan və Qərbi azərbaycanlılar məsələsi artıq Ermənistan hökumətinin gündəliyindədir. Paşinyanın müxtəlif "yersiz" bəyanatları, əslində, vəziyyətin Ermənistanı nə qədər narahat etdiyini və İrəvanın çarəsizliyini göstərir. Paşinyan artıq yaxşı başa düşür ki, əslində, bir əsrdə azı 4 dəfə deportasiyaya, soyqırımına, ayrı-seçkiliyə məruz qalan Qərbi azərbaycanlıların haqlarının bərpası zərurətə çevrilib. Ermənistanın baş nazirinin açıq formada azərbaycanlılara qarşı törədilmiş cinayətlər və kütləvi qırğınları ört-basdır etmək cəhdləri bu cinayətlərin dövlət səviyyəsində törədildiyini və soyqırımı, eləcə də deportasiyanın təhrikçisi və təşkilatçısının elə Ermənistan dövlətinin özü olduğunu etiraf edir", - deyə deputat bildirib.

Bəhruz Məhərrəmovun dediyinə görə, Paşinyan anlamalıdır ki, Qərbi Azərbaycan ətrafında saxtakar mövqe tutmaqla nə Ermənistan nəsə əldə edə biləcək, nə də Azərbaycan özünün suveren haqlarından imtina edəcək. Yəni bu çıxışlar heç nəyi dəyişməz, lakin danışıqların tərəfi olan bir "ölkə"nin baş nazirinin yersiz iddiaları regionda sülh prosesinə mənfi təsir göstərə bilər.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ombudsman BMT-nin İnsan Hüquqları Şurasının bəzi nümayəndələrinin Laçın yolundakı vəziyyətlə bağlı bəyanatına cavab verib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərinin və müstəqil ekspertinin Xankəndi-Laçın yolundakı vəziyyətlə bağlı yayılmış bəyanatına cavab verib.



AZƏRTAC xəbər verir ki, ombudsman bununla bağlı açıqlamasında bildirib: "Məlum olduğu kimi, insan hüquq və azadlıqlarının bəyan edildiyi təməl sənədlərindən biri olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi özündə irqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, bütün insanların bərabərliyinin təmini və ayrı-seçkiliyin qadağan olunması prinsiplərini ehtiva edir.

Hesab edirik ki, bu sənəd BMT-yə üzv dövlətlərlə yanaşı, BMT-nin insan hüquq müdafiə mexanizmi sisteminə aid olan qurumların da əsas istinad mənbəyi olmalıdır.

Lakin 30 il ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına, bir milyondan çox qaçqın və keçmiş məcburi köçkün insanların fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına, etnik təmizləmə, genosid və digər müharibə cinayətlərinə, itkin düşmüş dörd minə yaxın azərbaycanlının taleyinə, Azərbaycan torpaqları işğaldan azad edildikdən sonra keçmiş məcburi köçkünlərin öz doğma evlərinə geri qayıtmasına ciddi maneə olan mina terroruna hər hansı bir reaksiya verməyən, susqunluq nümayiş etdirən və ya bilərəkdən göz yuman BMT-nin xüsusi məruzəçilərinin və ekspertlərinin qərəzli siyasi məqsədlərə xidmət edən və həqiqəti əks etdirməyən bəyanatlar verməsi ilk olaraq BMT tərəfindən müəyyən edilmiş norma və prinsiplərin heçə sayılması və ikili standartlar kimi qiymətləndirilməlidir.



Bununla bağlı beynəlxalq və regional insan hüquq müdafiə təşkilatlarına ünvanladığımız bəyanatlara əlavə olaraq, bir daha diqqətə çatdırmaq istərdik ki, Xankəndi-Laçın yolunda humanitar məqsədlərlə nəqliyyat vasitələrinin və Qarabağda yaşayan ermənisilli sakinlərin keçidinə heç bir maneə yoxdur və Azərbaycan "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi vasitəsilə həmin yolda təhlükəsiz keçidi təmin etməkdədir.

Bu gün Azərbaycan öz vətəndaşlarının hüquq və azadlıqlarının, təhlükəsizliyinin təmin edilməsi məqsədilə BMT tərəfindən tanınmış suveren ərazisində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi təsis edib. Eyni zamanda Beynəlxalq Ədalət Məhkəməsi də özünün müvafiq qərarında bu addımın legitimliyini tanıyıb.

BMT-nin İnsan Hüquqları Şurasının bəzi xüsusi məruzəçilərini və müstəqil ekspertini bir daha öz fəaliyyətlərini BMT tərəfindən müəyyən edilmiş prinsiplərə uyğun həyata keçirməyə, ikili standandartlara yol verməməyə, regionda sülh quruculuğu prosesinə maneə törədən və vəziyyətin gərginləşməsinə şərait yaradan bəyanatlar verməkdən çəkinməyə, bölgədə davamlı olaraq təxribatlar törədən Ermənistana qarşı təsirli tədbirlər görməyə, Azərbaycanın sülh və təhlükəsizliyin təmin edilməsi üçün sərgilədiyi səylərə dəstək verməyə çağırırıq".

# Qərbi Azərbaycan İcması BMT-nin insan hüquqları üzrə bir qrup ekspertinin qərəzli bəyanatını qınayıb

Qərbi Azərbaycan İcması BMT-nin insan hüquqları üzrə bir qrup ekspertinin avqustun 7-si tarixli qərəzli bəyanatını qınayıb.

Bu barədə AZƏRTAC-a icmadan məlumat verilib. Bildirilib ki, "blokada", "humanitar böhran" kimi uydurma məqamların öz əksini tapdığı bəyanatın məzmunu BMT ekspertlərinin münasibət ifadə etdikləri məsələdən tamamilə bixəbər olduqlarını deməyə əsas verir.

BMT-nin insan hüquqları üzrə ekspertlərinin Davranış Məcəlləsinə (Code of Conduct) əsasən, onların bütün açıqlamaları faktlara, sübutlara, etibarlı mənbələrə əsaslanmalıdır. Bu mənada icma ekspertlərin Davranış Məcəlləsini pozaraq son vaxtlar bəzi dairələr tərəfindən aparılan anti-Azərbaycan kampaniyasının qurbanına çevrilməsindən təəssüflənir.

Qərbi Azərbaycan İcması BMT ekspertlərini Davranış Məcəlləsinə uyğun olaraq öz müstəqilliklərini, qərəzsizliklərini qorumağa çağırır. İcma Ermənistan tərəfindən öz doğma yurdlarından deportasiya olunmuş, lakin bu günə qədər də beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin diqqətini çəkmədiyi qərbi azərbaycanlıları öz sıralarında birləşdirən bir icma olaraq insan hüquqlarına münasibətdə ikili standartların, siyasiləşdirilmənin qəbuledilməz olduğunu vurğulayır.

BMT-nin insan hüquqları üzrə ekspertlərinin açıqlamasında bir sıra lüzumsuz siyasi mesajların yer alması bir daha onların öz mandatlarını aşdığını, kənardan təlimat aldıqlarını göstərir. Bu xüsusda icma BMT ekspertlərini insan hüquqları üzrə mandat daşıyıcıları sistemini gözdən salmamağa çağırır.

Qərbi Azərbaycan İcması BMT ekspertlərini dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağa, yanlış terminologiya və toponimlərdən istifadə etməməyə çağırır.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# ACE platformasının üst modulları dənizə yola salındı

**bp "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinin operatoru kimi elan edib ki, "Azəri Mərkəzi Şərqi" (ACE) platformasının üst modulları inşa edildiyi Bayıl tikinti-quraşdırma sahəsindən dənizə yola salındı. Dənizdə quraşdırılma və işəsalma işlərini minimuma endirmək məqsədilə quruda üst modulların yola salınmazdan əvvəl əsas istismar sınaqları və yoxlamaları həyata keçirilib.**

Qeyd edək ki, bu il aprelin 4-də Prezident İlham Əliyev üst modulların inşa edildiyi tikinti-quraşdırma sahəsinə baş çəkərək inşası artıq başa çatmış qurğu dənizə öz daimi yerinə yola salınmazdan əvvəl onun hazırlıq vəziyyəti ilə tanış olmuşdu. Həmin vaxtdan bəri işçi heyəti quruda aparılması planlaşdırılan əsas istismar sınaqlarını və yoxlamaları uğurla başa çatdırmışdır. Bu işlərə qazma qurğusunun quruda işə salınması və sınaq əməliyyat işləri aparılması müddətinin uğurla bitməsi, inteqrasiya olunmuş qurğu sisteminin bütövlükdə əminlik sınaqları və sistemi dayandırarkən təzyiqin aşağı salınması əməliyyatının təhlükəsizlik sınağı daxil idi. Bu işlər bitdikdən sonra üst modullar təhlükəsiz şəkildə lazımi hündürlüyə qaldırıldı və yükləmə çərçivəsi qurğusunun üzərinə endirildi ki, oradan da daşıma barjasının üstünə sürüşdürülsün.

May ayının 30-da STB-1 daşıma barjası Bibiheybət tikinti-quraşdırma sahəsinə gətirildi və üst modulların barjaya yüklənməsi əməliyyatı üçün hazırlıqlar başlandı. İyul ayının 2-də üst modullar bütövlükdə barjanın üzərinə yükləndi və dənizdə dayaq blokunun üzərinə quraşdırılmaq üçün avqustun əvvəlində AÇG sahəsinə yola salınmağa hazır vəziyyətə gətirildi.

Üst modulların daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi, montajı və quraşdırılması işləri diqqətlə planlaşdırılıb. Qurğu mart ayından bəri suyun 137 metr dərinliyində quraşdırılmış ACE platformasının dayaq blokunun üzərinə yerləşdiriləcək.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qəri Counz: "ACE platformasının son hissəsini dənizə yola saldıq. İnanırıq ki, bu platforma sistem və proseslərin avtomatlaşdırılması və rəqəmsal innovasiyaların geniş istifadəsinə imkan yaradacaq ən müasir dizayna malik möhtəşəm innovativ mühəndislik nümunəsidir. Bu platforma Səngəçal terminalından, yəni uzaq məsafədən idarə ediləcək və bu mənada Xəzərdə sahildən idarə edəcəyimiz ilk dəniz platforması olacaq. Operator olaraq biz çox məmnunuq ki, belə bir mürəkkəb layihənin quruda aparılması planlaşdırılan bütün tikinti işlərini və istismar sınaqlarını uğurla başa çatdırdıq. Bütün bu işlərdə əməyi olan hər kəsə dərin təşəkkürümü bildirmək istəyirəm. Möhtəşəm icra göstəricilərinə və əldə etdiyimiz nailiyyətlərə görə platformanın hazırlanmasında iştirak edən podratçılarımıza, tikinti, istismar sınaqları, əməliyyatlar, texniki təhlükəsizlik və mühəndis qruplarımıza və bütün işçi qüvvəsinə xüsusilə təşəkkür edirəm".

Üst modulların növbəti günlər ərzində təhlükəsiz şəkildə dayaq blokunun üzərində quraşdırılacağı planlaşdırılır. Bundan sonra isə platformadan ilk hasilat quyusunun qazma işlərinə başlamaq və 2024-cü ilin əvvəlində ilk nefti əldə etmək üçün dənizdə quraşdırma işlərinin və istismar sınaqlarının tamamlanmasına bir neçə ay vaxt lazım olacaq.

ACE platformasının 19600 ton çəkisi olan üst modullarının tikintisinə 2019-cu ildə başlanıb və tikinti işləri möhtəşəm təhlükəsizlik göstəricisi ilə, yəni heç bir xəsarətə yol vermədən 21 milyon saat iş yerinə yetirilməklə tamamlanıb. Üst modullar neft və qaz emalı qurğularından, qazma qurğusu və avadanlığı kompleksindən, qaz kompressorundan və yaşayış bloklarından ibarətdir. Bayılda yerləşən tikinti-quraşdırma sahəsində "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib.

Xatırladaq ki, 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yataqlar blokunun işlənməsinin növbəti mərhələsidir. ACE dənizin təxminən 140 metr dərinliyində, mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında yerləşən yeni 48 şaxtalı hasilat, qazma və yaşayış platformasıdır. Layihəyə həmçinin yeni yataqdaxili sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün AÇG-nin işlənməsinin ikinci fazasının mövcud sualtı ixrac kəmərlərinə qoşulacaq. Bundan əlavə, laya vurulan suları "Mərkəzi Azəri" kompressiya və suvurma platformasından ACE qurğularına nəql etmək məqsədilə ACE və "Şərqi Azəri" platformaları arasında suvurma boru xətti olacaq.

ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır.

Layihənin pik dövründə Azərbaycanda ACE layihəsinin tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycanda Amerika Ticarət Palatasının İnsan Resursları və Əmək Komitəsinin nümayəndələri ilə görüş keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") İnsan Resursları və Əmək Komitəsinin nümayəndələri ilə görüş olub.**

Ölkəmizdə son illər aparılan sosial islahatlar və əldə olunan sosial uğurlar diqqətə çatdırılıb. Əmək qanunvericiliyinin əmək bazarında yeni çağırışlara, müasir tələblərə uyğun təkmilləşdirilməsi istiqamətində atılan addımlar, əmək qanunvericiliyində son dəyişikliklər barədə məlumat verilib.

"Əmək və Məşğulluq" altsisteminin əhəmiyyəti, Əməyin Mühafizəsi Mərkəzinin işəgötürənlərə metodiki dəstək verilməsində önəmli rol oynayacağı vurğulanıb. Əmək və məşğulluq sahələrində aparılan islahatlarda sahibkarlarla sosial dialoqa əsaslanan əməkdaşlığa xüsusi önəm verildiyi qeyd olunub.

Nazirliyin Əmək siyasəti şöbəsinin və Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbər vəzifəli şəxsləri və komitənin nümayəndələri arasında Əmək Məcəlləsinin tətbiqi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb, komitə üzvlərinin rəy və təklifləri dinlənilib.

## Ölkə üzrə vergi daxilolmaları 22,9 faiz artıb

**Bu ilin yanvar-iyul ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 11 milyard 231,2 milyon manat vergi daxil olub.**

Dövlət Vergi Xidmətindən bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 22,9 faiz və ya 2,1 milyard manat artıb. Qeyri-neft-qaz sektorundan daxilolmalar 6,2 milyard manat təşkil edib. 2022-ci ilin eyni dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 19 faiz və ya 984,1 milyon manat artıb.

Ödənilən vergilərin 45,1 faizi neft-qaz sektorunun, 54,9 faizi qeyri-neft-qaz sektorunun payına düşüb.

## İstehsal edilən əmtəəlik təbii qazın 30 faizə yaxını ölkə daxilində istehlak olunmuşdur

**Cari ilin əvvəlinə olan ehtiyatlar da nəzərə alınmaqla 2023-cü ilin yanvar-iyun aylarında ölkədə əmtəəlik təbii qaz istehsalının həcmi 18 milyard 177,8 milyon kub metr təşkil etmişdir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, təbii qaz üzrə ehtiyatların 29,9 faizi ölkə daxilində istehlak edilmiş, 56,5 faizi ixrac olunmuş, 1,5 faizi itkiyə getmiş, 12,1 faizi isə iyul ayının əvvəlinə ehtiyat kimi qalmışdır.

Ölkə daxilində istehlak edilmiş təbii qazın 59,6 faizi istehsal ehtiyaclarına sərf edilmiş, 40,4 faizi isə əhaliyə satılmışdır.

2023-cü ilin yanvar-iyun aylarında 11 milyard 800,0 milyon kub metr və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz çox təbii qaz ixrac edilmişdir.

Əhali tərəfindən 2 milyard 527,7 milyon kub metr və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,1 faiz çox təbii qaz istehlak edilmiş, onun 38,6 faizi Bakı şəhərinin, 2,8 faizi Naxçıvan Muxtar Respublikasının, 11,3 faizi Abşeron-Xızı, 6,1 faizi Gəncə-Daşkəsən, 5,9 faizi Lənkəran-Astara, 5,8 faizi Qazax-Tovuz, 5,7 faizi Mərkəzi Aran, 5,0 faizi Quba-Xaçmaz, 4,9 faizi Şəki-Zaqatala, 4,5 faizi Qarabağ, 3,6 faizi Mil-Muğan, 3,4 faizi Şirvan-Salyan, 2,4 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşmüşdür.

## 41 dərəcədən çox olan isti havada hansı tədbirlər görülməlidir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti bildirir ki, havanın temperaturunun 41$^0$C-dən çox olduğu bir vaxtda əmək qanunvericiliyinin tələblərinə əsasən, işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görmək işəgötürənin əsas vəzifələrindən biridir.**



Qeyd olunub ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu 41$^0$C-dən çox olduqda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır.

İşçilərə sərinləmək üçün imkan yaradılmalı, onlara fasilələr verilməli, fasilənin sayı və müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Məcəlləyə əsasən, bu fasilələr iş vaxtına daxil edilir və fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdəiki hissəsindən az olmayaraq ödənilir.

Əmək şəraiti şərtləri imkan verdiyi hallarda günün isti vaxtında iş dayandırılaraq (uzun fasilə verərək) iş günü hissələrə bölünməklə iş rejimi tənzimlənə bilər.

## Baxıcı-dayə layihəsi çərçivəsində praktik məşğələlərə başlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Dəstək Mərkəzi tərəfindən "Baxıcı-dayə xidmətinin təşkili" layihəsi çərçivəsində praktik məşğələlərə başlanıb.**



Ahıl və əlilliyi olan şəxslərə göstərilən səyyar xidmətin keyfiyyətinin artırılması məqsədini daşıyan layihəyə bu sahədə çalışan sosial xidmət işçiləri cəlb olunub.

40 saatı əhatə edən praktik məşğələlər nazirliyin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Mərdəkan Müalicə Pansionatında təşkil olunub.

Layihənin sonunda nəzəri və praktik baza biliklərinə yiyələnmiş iştirakçılara sertifikatlar təqdim ediləcək.

# Biznesi seçib "ledi" olan xanımlarımızın sayı artır



**Bəşəriyyət yaranandan bütün dünyada kişilərlə bərabər olmağa çalışan, onlarla eyni addımlamaqdan yorulmayan qadınların cəmiyyətin inkişafında xidmətləri danılmazdır. Qadınlar zərif və incə olduqları qədər də dözümlü və güclüdürlər.**

Tarixdə Azərbaycan qadınının öz yeri, cəmiyyətdə öz mövqeyi var. O, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutur. Bu parametrlərin daşıyıcısı olan Azərbaycan qadını ana, tərbiyəçi olmaqla bərabər, həm də müxtəlif sahələrdə çalışır. Elə bir sahə tapılmaz ki, qadınlar orada işləməsinlər. Ən ağır peşələrdən tutmuş, ən təhlükəli və xüsusi əhəmiyyətli sahələrdə belə qadınlar zəhmət çəkirlər.

Bunların sırasında elə bir fəaliyyət sahəsi var ki, xüsusi məsuliyyət və cavabdehlik tələb edir. Bu, sahibkarlıqdır. Sahibkar novatorluğu və yaradıcılığı özündə birləşdirən, müasirliyin gərəkli və faydalı tərəflərini əməli işində göstərən şəxsə deyilir. Dünyanın hər yerində sahibkarlıqla maliyyə, fiziki və sosial riskləri olan, kifayət qədər zəhmət və vaxt sərf edərək yeni dəyər yarada bilən kişilər və qadınlar məşğuldur. Bu fəaliyyət növündə kişilərlə bərabər uğur əldə edən xeyli Azərbaycan qadını da var. Həmin fəaliyyət fonunda diqqəti cəlb edən faktlardan biri də odur ki, qadınların fəallığında yüksələn dinamika müşahidə olunur. Çünki Azərbaycan qadını ənənələri, milliliyi, innovativliyi, intellekt və sosial aktivliyi istər şəxsi həyatında, istərsə də ictimai həyatda və iş dünyasında cəmləşdirə bilir.

Qadınların iqtisadi müstəqilliyi onların hüquqlarının qorunması ilə əlaqədardır. Ona görə də qadın sahibkarlığının inkişafı hər zaman aktualdır və əhəmiyyət kəsb edən faktordur. Unutmaq olmaz ki, qadınlar arasında sahibkarlığın inkişafı birbaşa cəmiyyətin yüksəlişinə təsir edir. Ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edən sahibkar qadınlara dövlət diqqət və qayğı ilə yanaşır, onların iqtisadi potensialının artırılması, texniki və maliyyə yardımlarının göstərilməsi, güzəştli kreditlərin verilməsi istiqamətində mühüm addımlar atır. Sahibkar qadınların maarifləndirici layihələrinin əmək bazarında həyata keçirilməsini təmin etmək dövlətin bu sahədə atdığı addımlardandır.

Bu gün iş dünyasında qadınların rolunun və çəkisinin ilbəil yüksələn dinamikası Azərbaycan cəmiyyətində aydın hiss olunur. Müasir iqtisadiyyatda qadın sahibkarlığı kiçik və orta sahibkarlığın daha dinamik hissəsini təşkil edir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə son illər qadın sahibkarların sayı xeyli artıb. Rəqəmlərə müraciət edək: Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü il aprelin 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş qadın sahibkarların sayı 277 min 246 nəfər təşkil edib. Qadın sahibkarların sayı 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz və ya 20 min 438 nəfər artıb. Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,3 faiz təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28 faiz, fərdi sahibkarlar arasında isə 22 faizdir.

Bu cür inkişafın səbəblərindən biri də qadının siyasətdə, səhiyyədə, mədəniyyətdə, təhsildə, ictimai həyatda və digər sahələrdə fəal iştirak etməsi, öz potensialını reallaşdırmasıdır. Ölkəmizi beynəlxalq arenada uğurla təmsil etməsi Azərbaycan qadınının gücünü göstərir. Son illər dövlət strukturlarında, seçkili orqanlarda, yerli özünüidarəetmə qurumlarında çalışan qadınların sayının artması dövlətin qadınlarla bağlı siyasətinin məntiqi nəticəsidir.

Belə olan halda, əlbəttə, iqtisadi sferada qadınların fəaliyyət göstərməsi, biznesə maraqlarının artması, sahibkarlıq subyektinə çevrilməsi üçün açılan geniş imkanlardan istifadə etməkdə azad və müstəqil fəaliyyət göstərməyə heç bir maneə qalmır. Qadın həm sosial rifahını yüksəldir, ailəsinə dəstək olur, onu ayaqda saxlayır, həm də başqalarının "qolundan tutub" onların işlə təmin edilməsində rol oynayır. Üstəlik də vergi ödəyicisi kimi özünü təsdiq edərək dövlətin vergi siyasətində müəyyən yer tutur. Güzəştli kreditlərin verilməsi, kənd təsərrüfatı ilə məşğul olanların vergilərdən azad edilməsi isə sahibkar qadınlara çox böyük köməkdir. Əvvəllər qadın sahibkarlar məhdud sahələrdə sahibkarlıq fəaliyyətinə, xüsusilə də tibbə və təhsilə maraq göstərirdilər. Amma son vaxtlar reklam menecmenti, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatının müxtəlif sahələri və ekoturizmdə də qadınların fəal iştirakını görürük. Hətta hazırda onların arasında müəyyən rəqabət mühiti formalaşıb.

Dövlətin texnoparkların yaradılması, vergi güzəştlərinin tətbiqi, eyni zamanda yoxlama hallarının olmaması ilə sahibkarın qarşısında geniş meydan açması qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradır. Onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması üçün qapılar geniş açılır. Əsas məqsəd qadınlarda özünəinam hissini artırmaq, həm öz ətrafına, həm də cəmiyyətə töhfə verə bilməsinə şərait yaratmaqdır.

Xatırladaq ki, 2017-ci ildə Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası təsis edilib. Qadın sahibkarları özündə birləşdirən bu birlik Prezident İlham Əliyevin tövsiyəsi ilə yaranıb. Assosiasiyanın yaranmasında məqsəd ölkədə lider qadınların işgüzar birliyinin bir çətir altında birləşməsidir. Əsas məqsədlərdən biri qadınları bu platformada daim görmək, onların arzularının yerinə yetirilməsi üçün şərait yaratmaqdır. Bunun üçün həm yerli, həm də beynəlxalq səviyyədə əlaqələr qurmaq, şəbəkələr yaratmaq lazımdır. Bu işlərin uğurlu alınması qadın sahibkarlığının keyfiyyətindən xəbər verir. Məhz bu keyfiyyətə söykənən qadın sahibkarlığının inkişafı yoxsulluğun azalmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox halda cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına kömək edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupun növbəti iclası Laçında keçirilib

Laçında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturunun bərpası, tikintisi və yenidən qurulması üzrə qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı görülmüş işlər və gələcək planlara dair aidiyyəti qurumların məlumatları dinlənilib, layihələrin icrası ilə bağlı mövcud imkanlar, qarşıya çıxan çətinliklər və onların həlli yolları geniş müzakirə edilib.

İclası giriş sözü ilə açan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi Qrupun rəhbəri Rəhman Hümmətov qeyd edib ki, dövlət proqramının Tədbirlər Planında avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının tikintisi kimi strateji layihələr yer alıb: "Bunlardan artıq bir neçəsi - Zəfər yolu, Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu, Füzuli-Hadrut avtomobil yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının tikintisi uğurla icra olunub. Laçın Hava Limanının tikintisi üzrə işlər sürətlə davam etdirilir, hazırda layihə üzrə işlərin ümumi icra vəziyyəti 32 faiz təşkil edir".

R.Hümmətov əlavə edib ki, 47,1 kilometrlik Bərdə-Ağdam və 110,4 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xətlərinin tikintisi işləri də davam etdirilir. Layihələr üzrə əldə edilmiş fiziki tərəqqiyə uyğun olaraq 70 və 41 faiz təşkil edir.

Nazir müavini hazırda ümumi uzunluğu 1965,5 kilometr olan 16 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını və bunların da əksəriyyətinin respublika əhəmiyyətli yollar olduğunu diqqətə çatdırıb.

Sonra R.Hümmətov işğaldan azad edilmiş ərazilərdə radio-televiziya yayımı, mobil rabitə və sabit telekommunikasiya şəbəkəsi üzrə görülmüş və planlaşdırılan işlər barədə iclas iştirakçılarını məlumatlandırıb.

Nazir müavini bildirib ki, Laçın şəhərinə əhalinin böyük qayıdışına başlanması və sakinlərin doğma yurdlarına köçürülməsi ilə əlaqədar hazırda şəhərdə aparılan bərpa-tikinti işləri çərçivəsində nəqliyyat və rabitə infrastrukturunun qurulması sahəsində də işlər sürətlə davam edir. Şəhərin daxili yollarının bərpası layihəsi 53 faiz icra edilib, eyni zamanda şəhərlərarası və şəhərdaxili nəqliyyat-yol şəbəkəsinin müasir tələblərə uyğun planlanması işlərinə başlanıb. Şəhərdə telekommunikasiya şəbəkəsinin qurulması istiqamətində 700 evdə yeni texnologiyalar əsasında GPON şəbəkəsinin tətbiq olunması üçün layihə hazırlanıb. Hazırda 19,7 kilometr uzunluqda fiber-optik magistral və 20 kilometr abunəçi kabel xətti çəkilib. Laçın şəhərində 137 məntəqədə telekommunikasiya xidmətlərinin təşkili üçün müvafiq infrastruktur qurulub.

İclasda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Laçın şəhərində yol-nəqliyyat infrastrukturunun qurulması, avtonəqliyyat və sərnişindaşıma xidmətlərinin təşkili məsələləri, mövcud tələbat və imkanlar geniş müzakirə edilib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının nümayəndəsi Elmir Vəlizadə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, həmçinin digər iştirakçılar çıxışlarında işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyəti, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə aidiyyəti qurumlar tərəfindən həyata keçirilməsi, ərazilərdə mina təhlükəsizliyi üzrə tədbirlərin daim nəzarətdə saxlanılması, yeni salınacaq yaşayış məntəqələrinə əhalinin köçürülməsi və məşğulluğunun təmin edilməsi və digər vacib məsələlər barədə qarşıda duran vəzifələrdən danışıblar.

İclasda dövlət proqramında sahə üzrə nəzərdə tutulan tədbirlərin vaxtında icrası ilə əlaqədar aidiyyəti qurumlarla birgə tədbirlər görülməsi, həmçinin yerlərdə tikinti-quraşdırma və bərpa işlərində müasir texnologiyaların tətbiqinin zəruriliyi və digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Səfər müddətində həmin ərazilərdə icra edilən bəzi layihələrə, o cümlədən Laçın şəhərinin daxili yol-nəqliyyat şəbəkəsinin tikintisi işlərinə, şəhərdə telekommunikasiya şəbəkəsinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə görülən işlərə, Laçın Hava Limanının tikintisi aparılan əraziyə, Xudafərin-Qubadlı-Laçın və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yollarının tikintisinə və Horadiz-Ağbənd dəmir yolu xəttinə baxış keçirilib.




# Çində XXXl Ümumdünya Yay Universiadası başa çatıb

## Azərbaycan yarışları 9 medalla bitirib

Çinin Çendu şəhərində 2023-cü il XXXl Ümumdünya Yay Universiadası başa çatıb. Medal sıralamasında mütləq lider ümumilikdə 178 medalla (103 qızıl, 40 gümüş və 35 bürünc) Oyunların ev sahibi ölkəsi - Çin komandası olub.




Yaponiya 93 mükafatla (21-29-43) ikinci pillədə qərarlaşıb, Cənubi Koreya isə 58 (17-18-23) medalla ilk üçlüyü tamamlayıb.

Xatırladaq ki, Çenduda Yay Universiadası iyulun 28-dən avqustun 8-dək keçirilib. 115 ölkənin atletləri 18 idman növü üzrə mübarizə aparıblar. Ölkəmiz 16 idman növündə 87 atletlə təmsil olunub.

Azərbaycan Universiadanı 38-ci pillədə başa vurub. İdmançılarımız yarışda 3 gümüş və 6 bürünc medal qazanıblar.

Bədii gimnastikada Zöhrə Ağamirova 2 gümüş və 1 bürünc medala yiyələnib.

Cüdoçulardan Rəşid Məmmədəliyev (73 kq) ikinci, Leyla Əliyeva (48 kq) və Yaşar Nəcəfov (66 kq) üçüncü yeri tutublar. Daha bir bürünc medalı kişilərdən ibarət cüdo millimiz qazanıb.

Taekvondoda Minayə Əkbərova (46 kq), avarçəkmədə Bəhmən Nəsiri də fəxri kürsüdə yer alıblar.

Qeyd edək ki, yarışda ümumilikdə 53 ölkə idmançıları medal qazanıblar.

Növbəti, XXXII Ümumdünya Yay Universiadası 2025-ci ildə Almaniyanın Reyn-Rur şəhərində keçirilməlidir.

# Leyli Əliyeva MDB Oyunlarında qızıl medal qazandı



Azərbaycan atıcısı Leyli Əliyeva Belarusun paytaxtı Minskdə keçirilən II MDB Oyunlarında qızıl medal qazanıb.

O, pnevmatik tapançadan 10 metr məsafəyə atəşaçma növündə bütün rəqiblərini qabaqlayıb.

Hazırda Azərbaycan yığmasının aktivində 24 mükafat var. Bunlardan 4-ü qızıl, 6-sı gümüş, 14-ü bürünc medallardır.

Medallardan 9-nu cüdoçular, 9-nu yunan-Roma güləşçiləri, 2-sini qadın boksçularımız, 1-ni atıcımız əldə ediblər. Daha üç bürünc medalı bədii gimnastika üzrə qrup komandamız çoxnövçülükdə və proqramın iki növündə qazanıb.

Bu mükafatlar sayəsində Azərbaycan 22 ölkə arasında 4-cü yerdə qərarlaşıb.

İlk pilləni Rusiya tutur, ikinci yerdə Belarus qərarlaşıb, üçüncü pillədə Özbəkistan komandasıdır.

Yarışlar avqustun 14-dək davam edəcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Dövlət Komissiyası Birinci Qarabağ müharibəsi şəhidinin cəsədi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Birinci Qarabağ müharibəsində şəhid olmuş Həsənov Rəhman Əhliman oğlunun cəsədinin tapılması və ekshumasiya edilməsi ilə bağlı KİV-də yayılan məlumatlara münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, komissiyanın məlumatında bildirilib: "Mətbuat nümayəndələrinin çoxsaylı sualları nəzərə alınaraq, Birinci Qarabağ müharibəsində itkin düşdüyü bildirilən şəhid Həsənov Rəhman Əhliman oğlunun cəsədinin 31 ildən sonra tapılması və ekshumasiya edilməsinə dair kütləvi informasiya vasitələrində yayılmış məlumatla bağlı tərəfimizdən araşdırma aparılıb. Məlum olub ki, Həsənov Rəhman Əhliman oğlu 1992-ci ildə Ermənistan silahlı qüvvələrinə qarşı döyüşdə qəhrəmancasına həlak olub və nəşi elə həmin vaxt döyüş bölgəsindən götürülərək Laçın rayonunun Suarası kəndində dəfn edildiyi üçün Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınmayıb. Bu günlərdə onun məzarının ətrafında yaxınları tərəfindən təmizlik və abadlıq işləri aparılıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası həssas xarakter daşıdığını nəzərə alaraq, itkin düşmüş şəxslər mövzusunda yoxlanılmamış məlumatların yayılmamasını xahiş edir".

# Ukraynalı uşaqların İsmayıllıya və Qəbələyə ekskursiyaları təşkil edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək düşərgələrdə yerləşdirilən və reabilitasiya tədbirlərinə cəlb edilən ukraynalı uşaqların bölgələrimizə ekskursiyası təşkil edilib.







Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, uşaqlar əvvəlcə İsmayıllı rayonunun Basqal qəsəbəsində tarixi irsimizlə tanış olub, öz koloritini qoruyub saxlayan qəsəbəni gəziblər.

Növbəti gün iştirakçıların Qəbələ rayonuna gəzintisi təşkil edilib. Onlar təbiət gözəllikləri və istirahət mərkəzləri ilə tanış olublar.

İstirahət günlərində uşaqlar üçün art-terapiya, peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyaları da aparılır. Düşərgədə olduqları müddətdə onlar psixososial təlimlər, ingilis dili kursları, foto çəkilişi, milli rəqslər və ustad dərslərinə də cəlb ediləcəklər.

Ukraynalı uşaqların Şəkiyə və Şamaxıya da ekskursiyalarının təşkili nəzərdə tutulur.

Qeyd edək ki, 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərilir.



# *Norveçin "Aftenposten" nəşri:*

# "Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür"

Dünya Azərbaycanın Ermənistan ilə dövlət sərhədində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsini yaratması ilə erməni yalanlarının yeni dalğasına şahid olmağa başladı. Yalana "həqiqət donu" geyindirərək dünyaya sırımağa çalışan ermənilərin həyasızlığına və məkrliyinə dair tarixdə saysız-hesabsız nümunələr var.

Lakin təəssüf doğuran hal odur ki, dünya ictimaiyyəti ermənilərin bu manipulyasiyalarına və yalanlarına nəinki inanır, hətta bəzən onun fəal iştirakçısına, alətinə çevrilir. Çox təəssüf ki, bu hala beynəlxalq ictimaiyyətin ermənilərin Azərbaycanın Qarabağdakı erməni əhalisinin guya "blokada"da qalması və "humanitar fəlakət" hay-küyünə qulaq verməsində bir daha şahid oluruq. Lakin yalan ayaq tutar, yeriməz deyirlər. Qarabağdakı ermənilərin bu yalanları elə onların özləri tərəfindən biabırçı formada üzə çıxarılır.

AZƏRTAC xəbər verir ki, Norveçin nüfuzlu "Aftenposten" nəşrində dərc olunan "Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülür" sərlövhəli məqalədə Qarabağdakı ermənilərin guya "humanitar fəlakət"lə üzləşmələri barədə erməni yalanlarından bəhs edilib.

Məqalənin müəllifi, Norveçdə fəaliyyət göstərən "Can" diaspor təşkilatının sədri Şervin Nəcəfpurun qələmə aldığı yazıda "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılmasından sonra Qarabağdakı ermənilərin guya blokadada qalmaları barədə əsassız iddiaları müəllifin topladığı, Qarabağdakı ermənilərin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdəki paylaşımları ilə alt-üst edilib. Yazıda vurğulanıb ki, Azərbaycana qarşı guya Qarabağdakı erməni əhalisini qida, su, dərman, yanacaq və elektrik enerjisi ilə təmin olunmadan dünyanın qalan hissəsindən təcrid etməsi ilə bağlı əsassız ittihamlar irəli sürülür. Lakin Azərbaycan ermənilərin bütün ehtiyaclarını ödəməyə hazırdır. Azərbaycan Qarabağa malların daşınması üçün Ağdam rayonu ilə Xankəndi arasındakı açıq yoldan istifadə olunmasını təklif edir. Lakin bu təklifi qəbul etməyən ermənilərin "humanitar böhran" və "blokada" iddialarının sırf siyasi manipulyasiya olduğu xüsusi vurğulanıb. Ermənistan KİV-inin, eləcə də ermənilərin bəzi havadarlarının da bu siyasi manipulyasiyalardan faydalanmağa və erməni yalanlarını daha da şişirtməyə çalışdıqları bildirilib.

Ş.Nəcəfpurun Qarabağın erməni sakinlərinin gündəlik həyatları ilə bağlı sosial şəbəkələrdən topladığı paylaşımlar onların "blokada" şəraitində yaşamaları, "humanitar fəlakət" ilə üzləşdikləri yalanlarını tamamilə ifşa edir. "Xankəndi mənim sosial mediadakı axtarışlarıma əsaslansaq, arzulanan yer kimi görünür. Ümid edirəm ki, norveçli jurnalistlər araşdırma aparmaq üçün təşəbbüs göstərəcəklər", - deyə Ş.Nəcəfpur məqalədə vurğulayıb.

BP Azərbaycan şirkətinin hökumətlə işlər üzrə baş müşaviri, Qarabağ müharibəsi veteranı Qivami Rəhimli həmin məqalə ilə bağlı şərhində ermənilərin yalan danışmaq "istedadı" barədə qeyd edib: "Ermənilərin tarixi faktları saxtalaşdırmaq, qərəzli iddiaları, xüsusən də guya onların əzablara məruz qalması barədə yalanları şişirtmək ənənəsi bu gün də davam edir. Ermənisayağı saxta xəbərlər media orqanlarına yol tapmaqla beynəlxalq ictimaiyyətin diqqətini yayındırır. Necə ki, Ermənistanın Spitak rayonunda baş verən zəlzələ zamanı, "Azadlıq Radio"sunun qeyd etdiyi kimi, "...ermənilərin zəlzələdən xilasetmə işləri barədə xəbərləri həqiqət sayıla biləcək qədər çox yaxşı idi". Ermənilərin




uydurma xəbərləri bu gün də həmin köhnə qaydada yayılmaqda davam edir. Amma köhnə bir məsəldə deyildiyi kimi: "Şahid həqiqəti deyəndə insanların həyatını xilas edir; yalan danışanda insanlara xəyanət edir".

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün kimya, fizika, biologiya laboratoriyalarının və STEAM istiqamətli avadanlıqların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **30.08.2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **07.09.2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.09.2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC inzibati binası üçün elektrik mallarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 avqust 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

# İrəvan hərtərəfli tənəzzül içindədir

## BMT-nin məruzəsinə əsasən, bir neçə ildən sonra Hayastan əhalisini başqa xalqlar əvəz edə bilər

Bu ilin geridə qalan 8 ayı ərzində Hayastanda sosial-iqtisadi, ictimai-siyasi vəziyyətin təhlili bu ölkənin daha böyük problemlər məngənəsində sıxıldığını göstərir. Daxili və xarici sferada yaşanan uğursuzluqların da miqyasının davamlı olaraq genişlənməsi özünü qabarıq formada nümayiş etdirir. Hadisələrin inkişaf axarı Hayastanı bu gedişlə daha böyük çətinliklərin gözlədiyini, ölkənin durumunun bərbad hala düşəcəyini deməyə əsas verir. Çünki bunun üçün ölkədə bütün zəmin formalaşıb və İrəvan hərtərəfli tənəzzül içindədir.

Bunların fonunda bu ölkəni tərk edənlərin sayında dinamik artım müşahidə edilir. Ölkənin boşalması artıq fəlakət həddinə çatıb. İllərdir özünü göstərən problemin qarşısının alınmasında hakimiyyət acizlik nümayiş etdirir. Elə bu səbəbdən Hayastanı birdəfəlik tərk edənlərin sayı ildən-ilə çoxalır.

Bu gedişlə Hayastanda heç kimin qalmayacağını Birləşmiş Millətlər Təşkilatının "World Population Prospects" adlı məruzəsi də təsdiq edir. Belə ki, məruzədə belə bir fikir yer alıb ki, 2100-cü ildə Hayastanda cəmi iki milyon əhali yaşayacaq. Mütəxəssislər bildirirlər ki, Hayastan əhalisi 2100-cü ilə qədər ya monoetnik olaraq qalacaq və illər keçdikcə azalacaq, ya da əhalinin bir hissəsini başqa xalqlar (ruslar, hindlilər) əvəz edəcəklər. Qeyd olunur ki, hazırda Hayastanda demoqrafik problem mövcuddur. İşçi qüvvəsinin çatışmazlığı ilə bağlı ciddi problemlər var. Hayastanda hazırda əhalinin 53 faizi, yəni 1,5 milyona yaxın insan 20-59 yaş qrupuna aiddir.

Qeyd olunur ki, 2050-ci ildə əhalinin 48 faizinin və ya 1,3 milyon nəfərin, 2100-cü ildə isə 44 faiz və ya 0,5 milyon nəfərin əmək qabiliyyətli yaş qrupunda olacağı proqnozlaşdırılır. Bundan başqa, Hayastanda kişi və qadınların sayı arasında açıq-aşkar disbalans var. Hazırda qadınların ümumi sayı kişilərin sayını təxminən 12 faiz üstələyir və bu disbalans hələ uzun illər davam edəcək.

Bu ilin birinci yarısında Ermənistanı təxminən 40 mindən çox insan tərk edib. "İravunk" qəzeti yazır ki, onların niyə getdiyini təxmin etmək çətin deyil, səbəbləri çoxdur. Gələcəyə inam yoxdur və insanların ölkəni tərk etməsinin əsas səbəblərindən biri elə budur. Onlar təkcə müharibədən dərhal sonra deyil, indi də gedirlər. Müharibədən sonra 85 mindən çox vətəndaş Hayastanı tərk edərək geri qayıtmayıb. Təkcə ötən ilin birinci yarısında gedənlər qayıdanları 100 min nəfərdən çox üstələyib.

Bütün bunların fonunda Hayastanda qəsdən adamöldürmə cinayətlərinin də sayı kəskin artıb. Hayastan Daxili İşlər Nazirliyinin yaydığı məlumatda deyilir ki, ilin birinci yarısında 33 qətl hadisəsi qeydə alınıb ki, onlardan 7-si odlu silahdan istifadə etməklə törədilib. 2022-ci ilin eyni dövründə 22 qətl hadisəsi qeydə alınıb ki, onlardan 5-i odlu silahdan istifadə ilə olub. Əvvəlki illə müqayisədə adamöldürmə hadisələrinin 50 faiz artması ölkədə cinayətkarlığın vəziyyətinin pisləşdiyini göstərir.

"4rd.am" saytı yazıb ki, Hayastanda polisin işi heç də qənaətbəxş deyil: "Belə həyəcanverici mənzərənin olmasına baxmayaraq, cəmi bir neçə həftə əvvəl Daxili İşlər Nazirliyində keçirilən müşavirədə 2023-cü ilin birinci yarısında polisin qarşısına qoyulan vəzifələrin icrasına nail olduğu vurğulanıb. Müşavirədə daxili işlər naziri qətl, qəsdən adam öldürməyə cəhd və digər cinayətlərin açılması istiqamətində işlərin gücləndirilməsi ilə bağlı tapşırıqlar verib. Lakin polisin üzərinə düşən vəzifələrin icrası təkcə cinayətlərin açılması deyil, həm də onların qarşısının alınmasıdır".

Bütün bunlar Hayastanda artıq hakimiyyətin əleyhinə yönələn gərgin bir vəziyyətin formalaşdığını üzə çıxarır. Belə bir vəziyyətdə Paşinyan iqtidarının devrilməsi tamamilə mümkün sayılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# AZAL sərnişinləri üçün onlayn qeydiyyat imkanlarını genişləndirir

Azərbaycanın milli aviadaşıyıcısı (AZAL) onlayn qeydiyyatdan keçmə müddətini artırıb. "Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, indi sərnişinlər əvvəlki 24 saat əvəzinə, uçuşa 48 saat qalmış qeydiyyatdan keçə bilərlər.

Beləliklə, AZAL öz sərnişinlərinə əlavə üstünlüklər təqdim etməyə və onların səyahət təcrübəsini yaxşılaşdırmağa çalışır.

Onlayn qeydiyyat vaxtının 48 saata qədər uzadılması sərnişinlərə daha çox rahatlıq və çeviklik təmin edəcək. Bu xidmət onlara səyahətlərini daha diqqətlə planlaşdırmağa kömək edəcək.

Onlayn qeydiyyat sərnişinlərə əvvəlcədən təyyarənin göyərtəsində oturacaq seçməyə və hava limanında qeydiyyat üçün növbələrdən yayınmağa, bununla da vaxta qənaət etməyə imkan verən rahat xidmətdir.




Onlayn qeydiyyatdan keçmək üçün sərnişinlər aviaşirkətin www.azal.az rəsmi saytına daxil olmalıdırlar.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan struktur idarələr üçün elektrik mallarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 avqust 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin komitə sədri Tahir Mirkişiliyə əzizi **MƏMMƏD QƏHRƏMANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə əzizi **MƏMMƏD QƏHRƏMANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə əzizi **MƏMMƏD QƏHRƏMANOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə əzizi **MƏMMƏD QƏHRƏMANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə əzizi **MƏMMƏD QƏHRƏMANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar memar, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Memarlar İttifaqının Ağsaqqallar Şurasınn üzvü **FEYZULLA AĞASƏFƏR OĞLU QULİYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar memar, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Memarlar İttifaqının Ağsaqqallar Şurasınn üzvü **FEYZULLA AĞASƏFƏR OĞLU QULİYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5480**
**Sifariş 1997**

**Qiyməti 40 qəpik**